

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

30 aprel 2026-cı il, cümə axşamı
№ 074 (7141)
Qiymәti 60 qəpik


## Dövlət dəstəyi...

### Prezident Sərəncam verdi

Bax səh. 3



## Siyasi dialoqun yeni məkanı



Bax səh. 2

## 13-cü iclas...

### Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının Katibliyi məlumat yayıb

Bax səh. 4

## 33 il öncə, bu gün...




Bax səh. 3

## 36-cı Ali Səviyyəli Toplantı...

Bax səh. 4



## Cəsur xüsusi təyinatlılarımız

Bax səh. 4

## Birlikdə yaşamaq fəlsəfəsi

Bax səh. 5

## Gömrük sistemində yeni islahatlar

Bax səh. 5

## Qlobal silahlanma yarışı: Kim nə qədər pul xərcləyir?

Bax səh. 6



## Qlobal neft bazarında gərginlik artır

Bax səh. 7




## Yaxın Şərq müharibəsi bitirmi?

Bax səh. 7

# Siyasi dialoqun yeni məkanı



# Bakı-Kiyev: yaxın münasibətlərə əsaslanan əməkdaşlıq...

**Azərbaycanın xarici siyasət kursu praqmatik və əməkdaşlığa açıq prinsiplər üzərində qurulub. Bu siyasətin əsas prioritetləri beynəlxalq hüquqa hörmət, dövlətlərin suverenliyi və ərazi bütövlüyünün qorunması, eləcə də qarşılıqlı maraqlara əsaslanan tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsidir. Azərbaycan qlobal və regional səviyyədə etibarlı tərəfdaş kimi çıxış edərək müxtəlif ölkələrlə siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrini genişləndirməyə xüsusi önəm verir. Bu kontekstdə Ukrayna ilə münasibətlər Azərbaycanın xarici siyasətində mühüm yer tutur. Hər iki ölkə oxşar tarixi-siyasi çağırışlarla üzləşib - ötən əsrin sonunda SSRİ-nin dağılması ilə müstəqilliklərini elan edən ölkələr qarşılıqlı şəkildə ərazi bütövlüyünə dəstək verilməsi, siyasi dialoqun davamlılığı və müxtəlif beynəlxalq platformalarda əməkdaşlıq kimi mühüm əlaqələrə malikdirlər. Azərbaycan və Ukrayna arasında formalaşan tərəfdaşlıq yalnız siyasi sahə ilə məhdudlaşmır, həm də iqtisadi və enerji əməkdaşlığı ilə daha da möhkəmlənir.**

## Yüksək siyasi dialoq...

Azərbaycan-Ukrayna münasibətləri qarşılıqlı etimad, ortaq maraqlar və beynəlxalq hüquqa əsaslanan əməkdaşlıq modeli kimi çıxış edir və bu, əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi üçün möhkəm zəmin yaradır.

Qeyd edildiyi kimi, SSRİ-nin dağılması ilə müstəqillik qazanan dövlətlər arasında siyasi əlaqələr formalaşıb və zamanla inkişaf edib. Bu əlaqələr əsasən qarşılıqlı dəstək, enerji əməkdaşlığı və beynəlxalq təşkilatlar çərçivəsində koordinasiya üzərində qurulub. Birləşmiş Millətlər Təşkilatı, ATƏT və GUAM kimi qurumlarda əməkdaşlıq edirlər. Paytaxtlarda səfirliklər fəaliyyət göstərir. 2022-ci ildən sonra, Rusiya-Ukrayna müharibəsi fonunda Azərbaycan Ukraynaya humanitar yardım göndərib. İki ölkə arasında siyasi dialoq və iqtisadi əlaqələr davam edir. Regional təhlükəsizlik, nəqliyyat dəhlizləri və ticarət sahəsində əməkdaşlıq perspektivləri mövcuddur.

Dövlət başçıları arasındakı münasibətlər də müntəzəm xarakter daşıyır - iki ölkənin prezidenti son 4 ildə 7 dəfə görüşüblər. Prezident Volodimir Zelenski 2019-cu ildə Bakıya səfər edib. Prezident İlham Əliyevin Kiyevə səfəri isə 2022-ci ilin yanvarında baş tutub. İntensiv dialoq dövlətlərarası münasibətlərin daha yüksək səviyyəyə qalxmasına şərait yaradıb. Prezident İlham Əliyev aprelin 25-də Qəbələdə Prezident Volodimir Zelenskinin Azərbaycana səfəri çərçivəsində mətbuata bəyanatında vurğulayıb ki, əməkdaşlığımızın çox güclü siyasi təməli vardır: "2008-ci ildə Kiyevdə, 2011-ci ildə Bakıda strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır və bunlar çox güclü siyasi sənədlərdir. O sənədlərdə ölkələrimizin qarşılıqlı olaraq ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı məsələləri öz əksini tapmışdır. Azərbaycan və Ukrayna bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq ölkələrin suverenliyini, ərazi bütövlüyünü dəstəkləyir və dəstəkləyəcəkdir".

Prezident Zelenski də bildirib ki, bizim müxtəlif beynəlxalq platformalarda görüşlərimiz olub: "Ötən il görüşlərimizdə qeyd etmişik ki, biz hər zaman bir-birimizi dəstəkləmişik. Mən qeyd etmişəm ki, biz Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini hər zaman dəstəkləmişik, eyni zamanda, biz Ukraynaya eyni münasibəti görmüşük".

## Qarşılıqlı əlaqələr münasibətlərin inkişafına töhfə verir

Ötən il Bakıda xarici işlər nazirliklərinin məsləhətləşmələri və Hökumətlərarası Komissiyanın iclası keçirilib. Bu isə siyasi dialoqun davamlılığına müsbət təsir göstərir.  Vurğulandığı kimi, Ukrayna ilə Azərbaycan arasında son illərdə artan siyasi dialoq iki ölkə münasibətlərinə yeni dinamizm qazandırır. Xüsusilə son 4 ildə prezidentlər səviyyəsində keçirilən 7 görüş qarşılıqlı etimadın möhkəmlənməsinə, əməkdaşlığın dərinləşməsinə və müxtəlif sahələrdə əlaqələrin genişlənməsinə zəmin yaradır. Bu intensiv təmaslar yüksək səviyyəli dialoqun davamlı xarakter almasına kömək edir - eləcə də, regional və beynəlxalq məsələlərdə mövqelərin uzlaşdırılmasına imkan verir. Beləliklə, liderlər arasında müntəzəm görüşlər iki ölkə arasında əlaqələrin daha sistemli və məqsədyönlü şəkildə inkişafına töhfə verir, əməkdaşlığın perspektivlərini genişləndirir və tərəfdaşlığı yeni mərhələyə yüksəldir. Prezident İlham Əliyev bəyanatında bildirib ki, son dörd il ərzində prezidentlər səviyyəsində yeddi görüşün keçirilməsi, - sonuncu görüş iki ay bundan əvvəl Münxen şəhərində olmuşdur, - gözəl göstəricidir: "Bu, əlaqələrimizin nə qədər dinamik olmasından xəbər verir. Biz bu gün qarşılıqlı hörmətdən, qarşılıqlı maraqların təmin edilməsindən danışırıq. Əminəm ki, bugünkü səfər Azərbaycan-Ukrayna dostluq əlaqələrinin inkişafına növbəti mühüm töhfə olacaqdır".

## Ukraynalı uşaqlara humanitar dəstək...

Uzun illər işğal və təcavüzə məruz qalmış, 30 ildən artıq müddətdə ərazilərinin bir hissəsi nəzarət altında saxlanılmış və nəticədə 1 milyona yaxın qaçqın və məcburi köçkün problemi ilə üzləşmiş Azərbaycan hər zaman qarşılıqlı münasibətlərdə humanitar məsələlərə həssas yanaşır. Məhz bu səbəbdən ölkə humanitar siyasəti dövlət strategiyasının ayrılmaz tərkib hissəsi kimi qəbul edir. Rəsmi Bakının mövcud konfrantasiyalara, münaqişələrə və müharibələrə münasibəti də birmənalıdır - biz bütün problemlərin sülh və danışıqlar yolu ilə tənzilənməsinin tərəfdarıyıq. Rusiya-Ukrayna müharibəsi kontekstində də Azərbaycan tərəf tutmur və neytral mövqe sərgiləyir. Bununla belə, humanitar dəyərlərə sadiq qalaraq Ukraynaya müxtəlif formalarda yardım göstərir. Bu yardımlar siyasi mövqedən deyil, insan amilinə əsaslanan yanaşmadan irəli gəlir və müharibədən zərər çəkmiş mülki əhalinin vəziyyətinin yüngülləşdirilməsinə yönəlir. Ukraynadan olan uşaqlara reabilitasiya proqramlarının həyata keçirilməsi də bu səpkidə atılan humanitar addımlardandır. Qeyd edək ki, müharibənin davam etdiyi dövrdə ümumilikdə 500-dən yuxarı uşaq ölkəmizə gətirilərək bu proqramlarda iştirak ediblər. Məsələn, 2024-cü ilin oktyabrında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin təşkilatçılığı ilə 30 ukraynalı uşaq reabilitasiya xidmətləri ilə təmin edilmək üçün ölkəmizə gətirilib. Uşaqlara agentliyin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində keçiriləcək 10 günlük proqram çərçivəsində tibbi, eləcə də sosial-psixoloji reabilitasiya xidmətləri göstəriləcək, peşəkar psixoloqlar tərəfindən fərdi konsultasiyalar, qrup terapiyaları, eləcə də yoqa və rəqs terapiya məşğələləri təşkil olunub. Reabilitasiya proqramı onların emosional vəziyyətlərinin stabilləşməsinə, cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə dəstək məqsədi daşıyır. Uşaqların Azərbaycan mədəniyyəti, tarixi ilə tanışlığı üçün Şəki və Qəbələ şəhərlərindəki muzeylərə ekskursiyalar təşkil olunub.

Ötən ilin avqustunda isə daha 30 uşaq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində reabilitasiya xidmətləri ilə əhatə olunublar. Mərkəzdə onlar ilk mərhələdə müayinədən keçirilib. Hər bir uşaq üçün fərdi reabilitasiya proqramı tərtib edilib. Emosional vəziyyətlərinin stabilləşməsinə, cəmiyyətə inteqrasiyalarına dəstək məqsədilə uşaqlar üçün peşəkar psixoloqlar tərəfindən fərdi konsultasiyalar, qrup terapiyaları, eləcə də yoqa və rəqs terapiya məşğələləri keçirilib. Onlara müalicəvi masaj, müalicəvi hovuz və vanna, art-terapiya və s. reabilitasiya xidmətləri göstərilib. 10 günlük sosial reabilitasiya proqramı çərçivəsində ukraynalı uşaqlar üçün asudə vaxtlarının maraqlı keçməsi üçün tarixi yerlərə, muzeylərə ekskursiyalar, stolüstü oyunlar, yarışlar və s. tədbirlər də təşkil olunub.

Prezident Zelenski bununla bağlı Prezident İlham Əliyevə təşəkkür edib və bildirib ki, "Biz, həmçinin, cənab Prezident, xüsusi olaraq Sizə təşəkkürümüzü bildiririk ki, bizim uşaqlarımıza kömək edirsiniz. O uşaqlar, övladlarımız cəbhəyanı bölgələrdən gəlirlər. Onlar əzab-əziyyətlərlə üzləşiblər, müharibədən əziyyət çəkiblər. Dəstəyinizə görə təşəkkür edirik. Beş yüzdən artıq ukraynalı uşaq buradadır və bu humanitar dəstəyə görə Sizə minnətdarıq".

## Ukrayna prezidentindən təklif: istərdik ki, danışıqlarımızı Azərbaycanda aparaq...

Yeni nizamın ən düşündürücü və ağrılı proseslərindən biri regional konfrantasiyaların coğrafiyasının genişlənməsidir - sirr deyil ki, müasir beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçir. Qlobal güc mərkəzləri yenidən formalaşır, klassik təhlükəsizlik mexanizmləri isə yeni çağırışlar qarşısında bəzən təsirsiz qalır. Belə bir mürəkkəb geosiyasi mənzərədə regional aktorların qlobal proseslərə təsir imkanları artmaqda, etibarlı tərəfdaş anlayışı isə beynəlxalq siyasətin əsas meyarlarından birinə çevrilməkdədir. Məhz bu kontekstdə Azərbaycanın artan rolu xüsusi diqqət çəkir. Son illər rəsmi Bakı təkcə regional sabitliyin təminatçısı kimi deyil, həm də qlobal təhlükəsizlik və sülh gündəliyinə töhfə verən məsuliyyətli aktor kimi çıxış edir. Enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutlarının şaxələndirilməsi, multikultural dəyərlərin təşviqi və beynəlxalq dialoq platformalarının yaradılması Azərbaycanın yumşaq və sərt güc elementlərini balanslı şəkildə birləşdirdiyini göstərir. Bu siyasət ölkəmizi etibarlı vasitəçi və dialoq məkanı kimi ön plana çıxarıb. Bakı sözün əsl mənasında sülhpərvər missiya ortaya qoyur - dünya siyasətində qütblərarası rəqabətin kəskinləşməsi və enerji-logistika marşrutları uğrunda mübarizənin artması fonunda Azərbaycanın sabitləşdirici potensialı daha aydın görünməyə başlayır. Bakı artıq yalnız region üçün deyil, həm də geniş Avrasiya məkanında siyasi dialoqun qorunması, təhlükəsizlik risklərinin idarə olunması və əməkdaşlıq mexanizmlərinin qurulması baxımından mühüm mərkəz funksiyasını icra edir. Ölkəmizin Qəzza bölgəsi ilə bağlı formalaşan Sülh Şurasında təsisçi üzv kimi təmsil olunması bu faktı təsdiqləyir. Paralel olaraq, Bakı Yaxın Şərqdə baş verən bir çox kataklizmlərdə, fikir ayrılıqlarında, hətta qarşıdurmanın bir addımlığında olan ölkələrin uzlaşmasında uğurlu vasitəçilik rolu nümayiş etdirir.

Bakı Rusiya-Ukrayna müharibəsinə münasibətdə də eyni mövqeni paylaşır - ölkəmiz bu prosesin dinc danışıqlar yolu ilə həllinin tərəfdarı kimi çıxış edir. Hətta müharibənin ilk illərində Bakı dəfələrlə tərəflərə bununla bağlı müraciətlər edib, uzun illər müharibənin ağrısını çəkən, onun acı nəticələrini yaşayan bir dövlət kimi vasitəçilik missiyasını təklif edib. Reallıq göstərir ki, Bakının bu problemin həllində vasitəçi rolu uğurlu ola bilər. O baxımdan ki, Bakı hər iki münaqişə tərəfi ilə eyni məsafədədir - həm rəsmi Kiyev, həm də Rusiya Azərbaycana etimad göstərir, hər iki dövlətlə yaxın əlaqələrmiz var. Ayrı- ayrılıqda isə Bakı həm də müharibədə artıq tərəfə çevrilmiş və ya vasitəçi kimi çıxış edən ölkələrlə də mühüm tərəfdaşlığa malikdir - daha açıq kontekstdə izah etsək, Rusiya-Ukrayna müharibəsinin tənzimlənməsi istiqamətində iki güc mərkəzi: Avropa İttifaqı və ABŞ daha fəal görünür. Bakı hər iki tərəf ilə yaxın strateji münasibətlərə malikdir. Azərbaycan ilə ABŞ yaxın strateji tərəfdaşdır - paralel olaraq Azərbaycan ABŞ ilə çiyin-çiyinə "Sülh Şurası" missiyasında təsisçi ölkə kimi çıxış edir. Aİ ilə münasibətlərimiz də yüksək səviyyədədir. O baxımdan, Azərbaycanın bütün tərəflərin ortaya qoyduğu səyləri birləşdirərək sülhpərvər vasitəçilik missiyası təqdim etməsi real görünür. Yeri gəlmişkən, Prezident Zelenski də özünün mətbuata bəyanıtında bu məqama toxunub. Ukrayna Prezidenti bildirib ki, Qəbələdə baş tutan görüşlərdə eyni zamanda, sülh sahəsində səylər müzakirə olunub: "Bu, Ukrayna üçün olduqca vacibdir ki, yekun nəticədə müharibəyə son qoyulsun. Əlbəttə, biz bu prosesdə vasitəçilik edən tərəfdaşlara minnətdarıq. Biz Azərbaycan Prezidentinə minnətdarıq. Bizim üçtərəfli və digər formatda danışıqlarımız oldu. Onlardan bəziləri Türkiyədə baş tutdu, daha sonra isə amerikalı tərəfdaşlarımızla Cenevrədə görüşdük və həmçinin istərdik ki, danışıqlarımızı Azərbaycanda aparaq. Bir halda ki, əgər bu diplomatiyanı, həmçinin Rusiya tərəfi də seçərsə".

Zelenskinin bu bəyanatı Azərbaycana birbaşa etimadın göstəricisidir. Bakı bu etimadı bütün məsələlərə və proseslərə beynəlxalq hüquq kontekstindən yanaşması ilə qazanıb. Biz münasibətlərin yalnız bu müstəvidə tənzimlənməsinin tərəfdarıyıq - bu isə son nəticədə şəffaf və hüquqi müstəviyə əsaslanan mənzərəni ortaya çıxarır...

***P.İSMAYILOV***

# Dövlət dəstəyi...

**Prezident İlham Əliyevin “Sel və daşqınların təhlükəli və zərərli təsirlərinə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında” imzaladığı sərəncama əsasən, 2026-cı ilin mart-aprel ayları ərzində güclü leysan yağışları və yaranan sel suları nəticəsində zərər dəymiş infrastrukturların bərpası və yenidən qurulması, əlavə kommunal xidmət strukturlarının yaradılması, fərdi yaşayış evlərinin inşası, bərpası, eləcə də mülkiyyət sahibinlərinə və aqrar zahədə ziyana məruz qalmış təsərrüfat sahiblərinə kompensasiyaların verilməsi nəzərdə tutulur. Sənədə əsasən, Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel sularının nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərin davamlılığının təmin edilməsi, habelə gələcəkdə analoji halların təkrarlanmaması üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan 85 milyon 869 min 260 manat vəsait ayrılıb.**



## Prezident Sərəncam verdi

## Fərdi yaşayış evləri tikiləcək, sakinlərə maddi yardım ödəniləcək

Dövlət başçısı tərəfindən ciddi dağıntılara səbəb olmuş, kənd təsərrüfatına, infrastruktur (yol, körpü, elektrik) obyektlərinə və yaşayış evlərinə dəymiş ziyanın nəticələrinin aradan qaldırılması üçün aidiyyəti dövlət orqanları qarşısında müvafiq tapşırıqlar qoyulub. Tədbirlər Planına əsasən, Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel suları nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması ilə bağlı görüləcək işlərin siyahısı müəyyən edilib. Siyahıya əsasən ilk növbədə, təxirə salınmadan zərər görmüş sakinlər üçün fərdi yaşayış evlərinin tikintisi nəzərdə tutulur. Belə ki, qısa müddətdə Xaçmaz şəhərində Koroğlu, Y.Şabanov, Ləcət, Cığatay, Tel, Uzunoba, kəndlərində fərdi yaşayış evlərinin yenidən tikilməsi, eləcə də İstisu qəsəbəsində 3 fərdi yaşayış evinin yenidən tikilməsi işlərinə başlanılacaq. Xudat şəhərində 2, Yalama və Xanoba kəndlərində də fərdi yaşayış evinin yenidən tikilməsinəzərdə tutulur. Ümumilikdə, Xaçmazın 10-a yaxın kəndində 20-dən çox ev yenidən inşa olunacaq. Həmçinin, Qusar, Quba, Şabran, Xızı və Siyəzən rayonlarında 20-dən artıq kənd və qəsəbədə, bir neçə kənddə fərdi yaşayış evlərinin tikintisi nəzərdə tutulur.

Bakı şəhərində isə Binəqədi rayonu ərazisindəki Ozan küçəsi 167, ev 112A ünvanında fərdi yaşayış evinin tikintisi Tədbirlər Planına daxil edilib. Nizami rayonu, Keşlə qəsəbəsi M.Ə.Sabir və B.Mirzəyev küçələrində çirkab suların təsirinə məruz qalmış 61 fərdi yaşayış evinin təmir-bərpası və yararsız hala düşmüş məişət əşyalarına görə maddi yardım verilməsi və həmin yaşayış evlərinin sakinlərinin 3 aylıq kirayə haqlarının ödənilməsi də icra olunacaq. Keşlə qəsəbəsi R.Bağırov küçəsi, 36/12 “b” ünvanında sökülmüş fərdi yaşayış evinin sakinlərinə isə birdəfəlik maddi yardım ödəniləcək.

## Mühafizə bəndləri və istinad divarları inşa olunacaq

Yaşayış və digər sahələrdə infrastruktur xidmətində təhlükəsizliyin möhkəmləndirilməsi məqsədilə Suraxanı, Səbail, Binəqədi və Xətai rayonlarında istinad divarlarının inşası da həyata keçiriləcək.

Tədbirlər Planında əhatəli və kompleks işlər sırasında su və meliorasiya tədbirləri xüsusi diqqəti cəlb edir. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən görüləcək işlərin planına əsasən, Şabran rayonunda Vəlvələçay-Taxtakörpü kanalının Dəvəçiçay ilə kəsişməsində 3400 mm-lik metal dukerin və xidməti körpünün dayaqlarının yuyulması, Dəvəçiçayda mühafizə bəndinin tikilməsi, Vəlvələçay-Taxtakörpü kanalının PK155-PK163 sağ tərəfində torpaq sürüşməsinin kənarlaşdırılması və terrasların yaradılması, Şabrançayda və Dəvəçiçayda mühafizə tədbirlərinin görülməsi, Xızı rayonunda Taxtakörpü-Ceyranbatan kanalının 9,10,11 və 12 saylı dukerlərinin kəsişdiyi Girdimançay, Gədiçay, Veqverçay və Sitalçayda olan keçidlərin yuyulması, habelə Xaçmaz rayonu Xanarx kanalı PK 140-630 aralığında sağ yamaclardan dağılmış beton üzlüyün bərpası nəzərdə tutulur. Ağsu rayonu ərazisindəki Ağsuçayın Maşadqanlı kəndi ərazisindən keçən hissəsində beton bəndin tikilməsi, Ağsuçayın şəhər ərazisindən keçən hissəsində fiksatorların və beton bəndlərin tikilməsi və Quba rayonu Qaraçayda daş-beton bəndin inşası, Xaçmaz rayonu Qusarçayda və Qaraçayda sahil mühafizə bəndlərinin quraşdırılması və Astara rayonu Pensərçayda daş-beton bəndlərin quraşdırılması da görüləcək işlər siyahısında yer alır. Abşeron rayonu ərazisində, o cümlədən Xırdalan şəhərində içməli su, kanalizasiya və yağış sularının axıdılması sistemlərində yaranmış qəzalı vəziyyətin aradan qaldırılması üçün tədbirlərin görülməsi də işlərin siyahısına aiddir. Bundan başqa, Xətai, Nizami, Binəqədi, Sabunçu rayonlarının və Sumqayıt şəhərinin müxtəlif ərazilərində kollektorlarda baş vermiş çökmənin aradan qaldırılması nəzərdə tutulur.

## Su-kanalizasiya, yol, elektrik təsərrüfatı ilə bağlı tədbirlər

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə həvalə edilmiş digər tədbirlərə kanalizasiya-nasos stansiyaları və nasos aqreqatlarının, generator avadanlıqlarının bərpası və mühərrikinin dəyişdirilməsi, subasma nəticəsində zədələnmiş avadanlıqların yenilənməsi, idarəetmə sisteminin mühafizə səviyyəsinin artırılması və digər zəruri tədbirlərin görülməsi işləri daxildir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən görüləcək işlər isə respublika əhəmiyyətli olmaqla, yol təsərrüfatında geniş miqyaslı tədbirləri əhatə edir. Agentlik həvalə edilmiş işlərin siyahısına Quba rayonu M-1-Zərqava-Kələnov yolunun 7-ci və 10-cu km-də yamaclarda baş vermiş sürüşmələrin və Quba-İspik-Xınalıq yolunun 30-cu km-də baş vermiş uçqunun, Quba-Qonaqkənd-Muçu yolunun 40-42-ci km-lərində baş vermiş çökmə, qabarma və sürüşmənin nəticələrinin aradan qaldırılması, Yerfi-Adur yolunun yararsız vəziyyətə düşmüş çınqıl örtüyünün yenilənməsi, diametri 300 və 500 mm-lik, ümumi uzunluğu 81 metr olan suötürücü boruların yenilənməsi və 20-ci km-də Söhüb kəndinin ərazisində yerləşən körpünün giriş-çıxış hissələrinin bərpası daxildir. Eləcə də Xaçmaz, Qusar, Şabran, Quba, Xızı, Siyəzən, Ağsu, İsmayıllı, Qaradağ, Səbail rayonu ərazilərində yollarda yaranmış çoxsaylı sürüşmə, uçqun, çökmə, qabarma və çatların nəticələrinin aradan qaldırılması həyata keçiriləcək.

“Azərişıq” ASC tərəfindən görüləcək işlər Binəqədi, Biləcəri, Xətai, Suraxanı, Sabunçu və Xəzər elektrik şəbəkələrinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlıdır. Həmin tədbirlər çərçivəsində transformator məntəqələrinin yeniləri ilə əvəz olunması, elektrik hava xətlərinin və yeraltı kabel xətlərinin dəyişdirilməsi və sürüşmə zonasından kənara çıxarılaraq yenilənməsi həyata keçiriləcək.

## Hər bir azərbaycanlının Prezidenti

Dövlət başçısının müvafiq sərəncamı növbəti humanizminin nümunəsi olmaqla, vətəndaşların çətin günlərində onların yanında olduğunu təsdiqləyir. Bu, bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində vətəndaş amili dayanır. Ölkə vətəndaşları 2003-cü ildən indiyə qədər bu fəaliyyətin dəfələrlə şahidi olublar. Sosial xarakterli fərman və sərəncamlar hər bir azərbaycanlının mənafeyinə xidmət edir. Ermənistanın işğalı nəticəsində yurd-yuvasından didərgin düşmüş keçmiş qaçqın və məcburi köçkünlərin davamlı sosial qayğı ilə əhatə olunması və torpaqlarımızın azad edilməsindən sonra bir nömrəli vəzifə kimi onların geri dönüşünün təmin edilməsi və layiqli həyat şəraitinin qurulması, sosial humanizmin davam etdirilməsi, şəhid ailələrinin, müharibə veteranlarının sosial durumunun yaxşılaşdırılması, onların mənzil-məişət problemlərinin həlli, müharibə əlillərinin avtomobillə təmin olunması və s. tədbirlər bunlara əyani misaldır.

Vaxtilə müxtəlif təbiət hadisələri nəticəsində zərərlə üzləşmiş sakinlərin və sahibkarların da çətinlikləri ən ali səviyyədə öz həllini tapıb. Kür çayının daşmasından, Zaqatala-Qax rayonları ərazisində baş verən, eləcə də Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşanmış zəlzələdən sonra hadisə yerinə ilk baş çəkənlərdən biri məhz Prezident İlham Əliyev olub və dərhal təxirəsalınmaz tədbirlər görülməsi üçün icra orqanlarına tapşırıqlar verilib. Onun daim nəzarəti və qayğısı sayəsində təbii fəlakət nəticəsində evləri uçulan, dağılan vətəndaşlar yeni, daha müasir mənzillərlə təmin olunublar, kənd təsərrüfatı mülkiyyətçiləri zəruri kompensasiya əldə ediblər.

## Ardıcıl və davamlı dövlət dəstəyi

Bir neçə il əvvəl Bakının Nizami rayonundakı “Diqlas” ticarət mərkəzində yanğın baş verən zamanı yüzlərlə sahibkara dəymiş ziyanın ödənilməsi də dövlət tərəfindən öz həllini tapıbdır. Həmin hadisədən dərhal sonra Prezident İlham Əliyev aidiyyəti qurumlara müvafiq tapşırıqlar verdi, hadisəni öz nəzarəti altında saxladı. Məhz Onun tapşırığı nəticəsində zərərçəkən sahibkarlarla dövlət rəsmilərinin görüşü keçirildi, baş vermiş hadisə ilə bağlı aidiyyəti qurumların və zərərçəkən sahibkarların nümayəndələrindən ibarət komissiya təşkil edildi. Prezidentin sədrliyi ilə keçirilən müşavirədə ticarət mərkəzində çalışan insanlara maddi ziyanın dəyərləndirilməsi və onlara dövlət tərəfindən dəstək göstərilməsi barədə müvafiq orqanlara tapşırıqlar verildi. Bütün bunlar İlham Əliyevin hər bir azərbaycanlının Prezidenti olduğunu nümayiş etdirir. O, ardıcıl və davamlı şəkildə insanların üzləşdiyi çətinliklərin həlli ilə bağlı çoxsaylı qərarlar qəbul edir, diqqət göstərir, hərtərəfli dövlət dəstəyi göstərir.

Azərbaycan Prezidentinin qəbul etdiyi bir çox qərarlar da sosial problemlərin həllində, vətəndaş məmnunluğunun təmin olunmasında mühüm rol oynayır. Hazırkı Sərəncamı yüksək dəyərləndirən vətəndaşlar ölkə başçısına bu diqqət və qayğıya, həssas münasibətə görə, dərin minnətdarlıqlarına bildirməkdədirlər.

*E.CƏFƏRLİ*

# 33 il öncə, bu gün...

## BMT TŞ-nin qəbul etdiyi 822 saylı qətnaməni 27 il sonra Azərbaycan öz gücünə yerinə yetirdi

Bu gün BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin qəbul olunmasından 33 il ötür. Təşkilatın 30 aprel 1993-cü ildə keçirilən iclasında qəbul olunmuş bu sənəd Azərbaycanın erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş Kəlbəcər rayonunun dərhal azad edilməsini ehtiva edir.

**Kəlbəcərin işğalı...**

Xatırladaq ki, Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də Ermənistan tərəfindən işğal edilib. O dövrdə mərkəzi hakimiyyətdən kömək almayan kəlbəcərlilər 1993-cü il mart ayının 23-dən aprel ayının 2-dək özlərindən qat-qat yaxşı təchiz olunmuş erməni hərbi birləşmələrinə qarşı mərdliklə vuruşublar. 1993-cü ilin qiymətlərinə görə, işğal nəticəsində Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan vurulub. İşğal nəticəsində Kəlbəcərdən 53340 nəfər adam qovulub, 511 dinc əhali öldürülüb, 321 nəfər isə əsir götürülüb və itkin düşüb.

Kəlbəcərin uzun müddət işğal altında saxlanılması nəticəsində həmin ərazidə bioloji müxtəlifliyə, o cümlədən flora və faunaya, xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi zərər vurulub, ərazilərin yandırılması, su resurslarının çirkləndirilməsi, qiymətli ağac növləri ilə zəngin meşələrin, eləcə də təbiət abidələrinin, ümumilikdə yeraltı və yerüstü təbii sərvətlərin məqsədli şəkildə talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulub. Kəlbəcər rayonunda 968 hektar ərazini əhatə edən “Qırmızı kitab”a daxil edilmiş ayıfındığı ağacları da kütləvi şəkildə qırılıb. Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik 7 relikt göl, o cümlədən Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl ciddi antropogen təsirə məruz qalıb.

**822 saylı qətnamədə nələr yazılmışdı?**

BMT Təhlükəsizlik Şurası da həmin il aprelin 30-da keçirdiyi iclasda Ermənistan ilə Azərbaycan arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlığını ifadə edib, silahlı hərbi əməliyyatların genişlənməsini və xüsusilə, erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna sonuncu hücumunu “həyəcanla” qeyd edərək, belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratması ilə əlaqədar xəbərdarlıq edib. İclasda, həmçinin böyük sayda mülki şəxslərin öz yurdlarından qovulması və regionda, xüsusilə Kəlbəcər rayonunda fövqəladə humanitar vəziyyətlə bağlı “həyəcan təbili” çalınıb.

BMT Təhlükəsizlik Şurasının üzvləri regionda bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini təsdiqləyərək, beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha bəyan ediblər. Eyni zamanda, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (indiki ATƏT-red.) çərçivəsində həyata keçirilən sülh prosesini dəstəkləndiyi vurğulanıb və silahlı hərbi əməliyyatların genişlənməsinin bu proses üçün dağıdıcı nəticə verə biləcəyindən dərin narahatlıq ifadə olunub.

Müzakirələrdən sonra BMT Təhlükəsizlik Şurası 5 bənddən ibarət 822 saylı qətnamə qəbul edib. Sənəddə təşkilat aşağıdakıları bəyan edib:

“1. Möhkəm atəşkəsin əldə edilməsi məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın digər bu yaxınlarda işğal olunmuş rayonlarından dərhal çıxarılmasını tələb edir;

2. Münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk qrupunun sülh prosesi çərçivəsində həll edilməsi məqsədilə maraqlı tərəfləri danışıqları dərhal bərpa etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirən hər hansı hərəkətlərdən çəkinməyə çağırır;

3. Mülki əhalinin əzablarını yüngülləşdirmək üçün regionda, xüsusilə münaqişəyə məruz qalmış rayonlarda, humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinə çağırır, bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir;

4. Baş Katibdən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Fəaliyyətdə olan Sədri, həmçinin Müşavirənin Minsk qrupunun Sədri ilə məsləhətləşmədə regionda, xüsusilə Azərbaycanın Kəlbəcər rayonunda, vəziyyətin qiymətləndirilməsini aparmağı və Şuraya növbəti məruzəni təqdim etməyi xahiş edir;

5. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır”.

Sənəd iclasda yekdilliklə qəbul olunub. Həmin dövrdə təşkilatın beş daimi üzvü ilə yanaşı, qeyri-daimi üzvü olan Braziliya, Kabo-Verde, Cibuti, İspaniya, Macarıstan, Yaponiya, Mərakeş, Yeni Zelandiya, Pakistan və Venesuela qətnaməyə səs veriblər.




**Kəlbəcərdə üçrəngli bayrağımız qürurla dalğalanır**

Məlumdur ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icrası məcburi xarakter daşıyır. Lakin təşkilat Azərbaycana münasibətdə ikili standartlar nümayiş etdirib və bu səbəbdən 822 saylı sənədin icrası məsələsi 27 il kağız üzərində qalıb.

Ona görə də, Azərbaycan dövləti sözügedən qətnaməni özü yerinə yetirdi. Belə ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ərazi bütövlüyünə özünün müzəffər ordusunun şanlı qələbəsi sayəsində nail oldu. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində Silahlı Qüvvələrimiz XXI əsrin müharibəsini apardı və düşməni ağır məğlubiyyətə uğratdı. Düşmən ordusu cəmi 44 gün ərzində bütün döyüş qabiliyyətini itirdi. Ağır məğlubiyyət acısı yaşayan Ermənistan noyabrın 10-da onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamaq məcburiyyətində qaldı. Həmin sənədə əsasən, məğlub Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarından döyüşsüz çıxmaq öhdəliyi götürdü. Razılaşmaya əsasən, Kəlbəcər noyabrın 25-də tamamilə boşaldılaraq Azərbaycana təhvil verildi. Həmin tarixdə Azərbaycanın Silahlı Qüvvələri rayon ərazisinə daxil olaraq burada nəzarəti ələ aldı. Prezident İlham Əliyevin sərəncamı ilə 25 noyabr Kəlbəcər Şəhər Günü elan edilib.

Artıq ötən ildən Kəlbəcər şəhərinə Böyük Qayıdış başlayıb. Hazırda keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını təmin etmək üçün davamlı tədbirlər həyata keçirilir.

*Nardar BAYRAMLI*

# 13-cü iclas...

## Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının Katibliyi məlumat yayıb

Aprelin 29-da Ermənistan Respublikasında, Ağverəndə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on üçüncü iclası keçirilib.

Məmnunluqla qeyd olunub ki, komissiyaların 13-cü iclası növbəti dəfə tərəflərdən birinin ərazisində - Ermənistan Respublikasında, Ağverəndə baş tutub.

Görüş zamanı tərəflər delimitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar.

Tərəflər delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair aşağıdakı təlimat layihələrinin mətnlərini razılaşdırıb və mübadilə ediblər:

• “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası zamanı delimitasiya üzrə ekspert qruplarının iş qaydası haqqında Təlimat”;

• “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiya xəritəsinin hazırlanması haqqında Təlimat”;

• “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiya sənədlərinin tərtibatı və nəşri qaydası haqqında Təlimat”.



Tərəflər bu təlimatların müvafiq qaydada təsdiq edilməsi üçün öz hökumətlərinə müraciət etmək barədə razılığa gəliblər.

Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan qarşılıqlı maraq doğuran məsələlər üzrə ayrıca fikir mübadiləsi aparıblar.

Qeyd olunub ki, Azərbaycan Respublikasının ərazisi ilə Ermənistan Respublikasına yüklərin tranziti uğurla həyata keçirilir və hazırda da davam edir.

Məmnunluqla vurğulanıb ki, Azərbaycanın Ermənistana neft məhsulları tədarük etməsi iki ölkə arasında iqtisadi-ticari əlaqələrin formalaşmasının göstəricisidir.

Həmçinin tərəflərin işgüzar dairələrinin nümayəndələrinin iştirakı ilə iqtisadi-ticari əməkdaşlığın inkişafı, malların və xidmətlərin qarşılıqlı tədarükü, həmçinin tranzit daşımaları məsələləri müzakirə olunub.

Xüsusi olaraq qeyd edilib ki, əldə olunan nəticələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın siyasi iradəsi sayəsində mümkün olub.

Komissiyaların görüşünün yekunlarına dair müvafiq Protokol imzalanıb.

Tərəflər komissiyaların Azərbaycan Respublikasında növbəti iclasının tarixinin işçi qaydada müəyyən edilməsi barədə razılığa gəliblər.

# 36-cı Ali Səviyyəli Toplantı...

## Tədbir “Qərbi Balkanlar yeni təhlükəsizlik geosiyasətinin burulğanında” mövzusuna həsr edilib

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi “Friends of Western Balkans” İnstitutu ilə əməkdaşlıq çərçivəsində aprelin 27-28-də Sloveniyanın Lyublyana şəhərində 36-cı Ali Səviyyəli Toplantısını təşkil edib. “Qərbi Balkanlar yeni təhlükəsizlik geosiyasətinin burulğanında” mövzusuna həsr edilən tədbirdə sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri, xüsusi elçilər, siyasətçilər və nüfuzlu ekspertlər iştirak ediblər.

Toplantıda Sloveniya Prezidenti Nataşa Pirts Musar da iştirak edərək Qərbi Balkanlarda mövcud vəziyyət və regionun gələcəyi ilə bağlı fikirlərini bölüşüb. Tədbirin açılış mərasimində Sloveniyanın sabiq Prezidenti, “Friends of Western Balkans” İnstitutunun təsisçisi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Borut Pahor, eləcə də mərkəzin digər üzvləri - Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç və Serbiyanın sabiq Prezidenti Boris Tadiç çıxış edərək Qərbi Balkanlar üçün siyasi sabitlik, təhlükəsizlik və Avropa perspektivinin əhəmiyyətini vurğulayıblar.

Tədbirdə, həmçinin Avstriya, Fransa, İtaliya, Böyük Britaniya və Almaniyanın Qərbi Balkanlar üzrə nümayəndələri iştirak ediblər. Bununla yanaşı, Albaniya parlamentinin spikeri də toplantıya qatılıb. Toplantı çərçivəsində keçirilən sessiyalarda yeni təhlükəsizlik geosiyasətinin Avropa İttifaqının gələcəyinə və genişlənmə prosesinə təsiri, region ölkələrinin siyasi, iqtisadi və təhlükəsizlik vəziyyəti geniş müzakirə olunub. Bununla yanaşı, NATO və Avropa İttifaqının genişlənməsinin regionun sabitliyi üçün rolu, eləcə də ABŞ, Rusiya, Çin və Türkiyə kimi xarici aktorların Qərbi Balkanlardakı təsiri ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, tədbir çərçivəsində ilk dəfə olaraq Qərbi Balkan ölkələrinin hər biri üzrə ayrıca müzakirələr təşkil olunaraq onların Avropa İttifaqına üzvlük prosesində əldə etdikləri irəliləyişlər və mövcud çətinliklər daha dərindən təhlil edilib. Tədbir çərçivəsində mərkəzin Baş katibi Sloveniya Respublikasının Prezidenti, Albaniya parlamentinin spikeri, Slovakiya Prezidentinin xarici məsələlər üzrə müşaviri və Borut Pahor ilə ikitərəfli görüşlər keçirib.

Xatırladaq ki, 35-ci Ali Səviyyəli Toplantı isə bu ilin yanvarında Cenevrə şəhərində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin BMT-nin Cenevrə Ofisi ilə tərəfdaşlıq çərçivəsində keçirilib. Toplantı “Çoxqütblü parçalanmalar və transformasiya dövründə multilateralizmin yenidən formalaşdırılması” mövzusuna həsr olunub. Yüksək səviyyəli beynəlxalq platforma çərçivəsində qlobal idarəetmənin gələcəyi, çoxtərəfli institutların dəyişən dünya nizamına uyğunlaşdırılması, iqlim böhranı və dayanıqlı inkişaf, süni intellekt və texnoloji transformasiya, sülh və təhlükəsizlik, humanitar çağırışlar, miqrasiya və qlobal səhiyyə, inklüziv iqtisadiyyatlar, qadınların liderlikdə rolu, həmçinin qlobal mənzil və şəhərsalma problemləri ilə bağlı geniş və əhatəli müzakirələr aparılıb. Eyni zamanda, müzakirələr zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçiriləcək XIII Qlobal Bakı Forumunun hazırlıq məsələlərinə xüsusi diqqət yetirilib. Bununla yanaşı, 17-22 may tarixlərində Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə bağlı məsələlər də müzakirə olunub.

Toplantıda 30-dan artıq ölkəni təmsil edən 50-dən çox yüksək səviyyəli beynəlxalq iştirakçı - sabiq dövlət və hökumət başçıları, BMT qurumlarının rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri və tanınmış ekspertlər iştirak ediblər.

Yeri gəlmişkən, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi hər il keçirilən Qlobal Bakı Forumunun təşkilatçısı qismində də çıxış edir. Mərkəz bundan əlavə, digər beynəlxalq tədbirlərin təşkilatçısı və tərəfdaşı kimi iştirak edir. Buna nümunə olaraq, ötən il 14-15 dekabrda Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansının (UNAOC) 11-ci Qlobal Forumunu göstərmək olar. “UNAOC: Bəşəriyyət üçün dialoqun 20 ili - Çoxqütblü dünyada qarşılıqlı hörmət və anlaşmanın yeni dövrünə doğru” şüarı ilə keçirilən foruma Nizami Gəncəvi Beynəlxalq Mərkəzi təşkilatçılıq edib. Forum müxtəlif sivilizasiyalar arasında qarşılıqlı anlaşma, dialoq və əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş yüksək səviyyəli platforma kimi dünya liderlərini, siyasətçiləri və ekspertləri bir araya gətirib.




Açılış mərasimində BMT-nin Cenevrə Ofisinin Baş direktoru Tatyana Valovaya, Ümumdünya Ticarət Təşkilatının Baş direktoru Ngozi Okonjo-İveala, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Rebeka Qrinspan, Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Dorin Boqdan-Martin, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax, Ərəb Liqasının sabiq Baş katibi və Misirin sabiq xarici işlər naziri Əmir Musa, Serbiyanın sabiq Prezidenti Boris Tadiç, eləcə də Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyev iştirak ediblər. Bununla yanaşı, açılış mərasimi çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Frayberqanın xüsusi müraciəti səsləndirilib.

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə BMT-nin Cenevrə Ofisi arasında mövcud institusional əməkdaşlıq çərçivəsində hər il keçirilən bu ali səviyyəli toplantılar qlobal çağırışların müzakirəsi üçün mühüm beynəlxalq platforma rolunu oynayır. Bundan əvvəlki - 34-cü Ali Səviyyəli Toplantı da aktual mövzularla diqqət mərkəzində olmuşdu. Belə ki, sözügedən tədbir ötən ilin 23-26 sentyabrında BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində baş tutub. “Multilateralizm dönüm nöqtəsində: Çağırışlar və sülhə aparan yollar” mövzusunda keçirilən toplantıda bir sıra ölkə rəhbərləri, sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilat rəhbərləri bir araya gələrək qlobal əməkdaşlıq və multilateralizmin aktual çağırışlarını müzakirə ediblər. Bu toplantı BMT Baş Assambleyası çərçivəsində keçirilən paralel tədbirlər arasında ən böyük tədbir hesab olunaraq 50-dən çox ölkədən yüksəksəviyyəli nümayəndələrin, o cümlədən 25-dən çox sabiq və indiki prezidentin, eləcə də 10-dan çox sabiq və indiki Baş nazirin iştirakı ilə keçirilmişdi.

Xatırladaq ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin Vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Mərkəzin önəmli tədbirlərə ev sahibliyi etməsi, ildən-ilə iştirakçıların sayında nəzərəçarpan artım ona olan diqqətin ifadəsi kimi dəyərləndirilir.

***Nardar BAYRAMLI***



# Cəsur xüsusi təyinatlılarımız

**Onlar cəsurdurlar, qorxu-hürkü nə olduğunu bilmirlər, qəlblərinə sonsuz Vətən sevgisi hakim kəsilib, adları çəkiləndə, harayları eşidiləndə düşmən gizlənməyə yer axtarır. Söhbət Müzəffər Silahlı Qüvvələrimizin Xüsusi Təyinatlı Qüvvələrindən gedir. Bu gün onların günüdür. Sonralar ağır döyüşlərdə düşmənə sarsıdıcı məğlubiyyət acısı yaşadan, Azərbaycanın, xalqımızın qüruruna çevrilən Xüsusi Təyinatlı Qüvvələr 27 il bundan əvvəl - 1999-cu il aprelin 30-da yaradılıb.**

## Ulu Öndərin böyük uzaqgörənliyi

Prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycan Ordusunun tərkibində Xüsusi Təyinatlı Qüvvələrin yaradılması Ulu Öndərimizin böyük uzaqgörənliyi idi. Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıtdıqdan sonra vaxt itirmədən Silahlı Qüvvələr daxilindəki pərakəndəliyi aradan qaldırmağa və vahid komandanlığa tabe olan ordu formalaşdırmağa nail oldu. Ulu Öndərin səyləri sayəsində Xüsusi Təyinatlı Qüvvələrin yaradılması da bu siyasətin davamı idi. XTQ-in yaradılmasında əsas məqsəd ordunun peşəkarlığını və döyüş qabiliyyətini artırmaq idi.

Xüsusi Təyinatlı Qüvvələrin formalaşmasında Birinci Qarabağ müharibəsinin iştirakçıları olan zabit və gizirlər fəal iştirak ediblər. Burada Türkiyə Silahlı Qüvvələri və onun Xüsusi Təyinatlı Qüvvələri ilə sıx əməkdaşlığın mühüm rolunu da ayrıca qeyd etmək lazımdır.

Adından da göründüyü kimi, Xüsusi Təyinatlı Qüvvələr seçilmiş, elit hərbi birləşmələrdir. Onun sıralarına hər kəs qatıla bilmir. Bunun üçün ağır təlimlərdən, hərbi imtahanlardan keçmək, sınaqlarda iradə, dözüm və xüsusi qabiliyyət nümayişi çox vacib şərtlərdəndir.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrə yüksək həssaslıqla yanaşır. Belə ki, ölkəmizdə bu qüvvələrin döyüş hazırlıqlarını davamlı olaraq artırmaları üçün lazım olan bütün şərait yaradılıb. Azərbaycan xüsusi təyinatlıları indiyədək müxtəlif ölkələrin təlim mərkəzlərində kurslara qatılıb və dəfələrlə ABŞ, Türkiyə və Pakistanda keçirilən yarışlarda fərqləniblər.

## Şanlı Aprel döyüşlərinin qəhrəmanları

Xüsusi Təyinatlı Qüvvələri fərqləndirən əsas məqamlardan biri ondan ibarətdir ki, onlar nəyə qadir olduqlarını bilavasitə döyüş meydanlarında nümayiş etdiriblər. 2016-cı ildə baş verən şanlı Aprel döyüşləri xüsusi təyinatlılarımız üçün bir sınaq oldu və onlar bu sınaqdan üzüağ çıxdılar.

Məlumdur ki, havadarlarının dəstəyi ilə Azərbaycan ərazilərini işğal altına alan ermənilər eyforiyaya qapılaraq özləri barəsində “qəhrəman xalq” mifi uydurmuşdular. Onlar elə güman edirdilər ki, hətta digər ərazilərimizi də ələ keçirməyə qadirdirlər. Aprel döyüşlərində Xüsusi Təyinatlı Qüvvələrimiz misilsiz igidliklər göstərməklə düşmənin uydurma mifini tar-mar etdilər.

Dörd gün davam edən Aprel döyüşləri nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan və Tərtər rayonunun Madagiz kəndləri istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Lələtəpə yüksəkliyinin və onun ətrafındakı strateji baxımdan mühüm əhəmiyyət daşıyan ərazilərin ələ keçirilməsi ilə Ordumuz geniş coğrafiyada düşmənin atəş məntəqələrinə nəzarət etmək imkanı qazandı. Çox doğru olaraq Aprel döyüşləri Azərbaycanın böyük Qələbəyə gedən yolunun başlanğıcı sayılır.

## Vətən müharibəsinin ən parlaq səhifəsi - Şuşa zəfəri

Xalqımızı Şuşa ilə güclü mənəvi tellər bağlayır və biz heç vaxt bu şəhərin düşmənin nəzarəti altında qalması ilə barışa bilməzdik və barışmadıq da. Məşəqqətli işğal illərində xəyallarımız hər zaman Şuşa ilə bağlı olurdu. Şəhərin azad edilməsi Azərbaycan dövləti və xalqı üçün müstəsna önəm daşıyırdı. Təsadüfi deyildir ki, İkinci Qarabağ müharibəsi günlərində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev qətiyyətlə bildirirdi ki, Şuşasız bizim işimiz yarımçıq qalar...

Şuşanın azad edilməsi ümummilli missiya idi, bunu xalq, dövlət, Ali Baş Komandan istəyirdi və bu ali missiyanı yerinə yetirmək şərəfi Xüsusi Təyinatlı Qüvvələrə nəsib oldu. Şuşa uca dağların zirvəsində qərar tutan bir şəhərdir. Onu azad etmək asan deyildi. Düşmən burada güclü istehkamlar qurmuşdu. Ancaq qəlblərində Vətən, torpaq, dövlət sevgisi yaşadan xüsusi təyinatlılarımız mümkünsüz görünəni reallığa çevirməyi bacardılar. Onlar keçilməz meşələrdən Şuşaya doğru yol açdılar, qayaları dırmaşaraq şəhərə daxil oldular və onu azadlığına qovuşdurdular. “Şuşanın azad olunması müharibənin ən parlaq səhifəsidir. Bu gün dünyanın aparıcı hərbi məktəblərində Şuşa əməliyyatı, Hadrut əməliyyatı, digər əməliyyatlar öyrənilir”, - deyə Prezident İlham Əliyev bildirib.

***Mübariz ABDULLAYEV***

# Birlikdə yaşamaq fəlsəfəsi

## Dinlərin və mədəniyyətlərin qovşağında Azərbaycan reallığı...

Azərbaycan çoxəsrlik tarixə malik, müxtəlif dinlərin, etnik qrupların və mədəniyyətlərin əsrlər boyu yanaşı yaşadığı nadir coğrafiyalardan biridir. Bu baxımdan ölkəmizdə dini və milli tolerantlıq təkcə müasir dövrün şüarı kimi deyil, həm də tarixin dərin qatlarından gələn ictimai-mədəni bir ənənə kimi formalaşıb. Bu ənənənin kökləri Qafqaz Albaniyası dövrünə qədər uzanır. Burada müxtəlif tayfalar, inanclar və mədəni sistemlər bir-birinə qarışmadan, lakin bir-birini inkar etmədən uzun müddət birgə mövcud olub. Sonrakı əsrlərdə isə İslamın yayılması ilə yanaşı, xristian və yəhudi icmalarının da bölgədə yaşaması bu çoxrəngli sosial strukturun daha da dərinləşməsinə səbəb olub.

Xüsusilə, Azərbaycan ərazisinin tarixi ticarət yollarının üzərində yerləşməsi, Şərq ilə Qərb arasında körpü rolunu oynaması, müxtəlif imperiyaların və mədəniyyətlərin burada qarşılaşması nəticəsində insanlarda fərqliliyə qarşı dözümlülük və uyğunlaşma bacarığının formalaşmasına təkan olub. Bu isə sonradan xalqımızın şüurunda "birlikdə yaşamaq mədəniyyəti" kimi dərin kök salıb. Orta əsrlərdən başlayaraq Şirvanşahlar, Səfəvilər və digər dövlətlər dövründə müxtəlif dini icmaların müəyyən muxtariyyət çərçivəsində öz adət-ənənələrini qoruyub saxlaması da bu tolerantlıq ənənəsinin davamlılığını göstərən mühüm faktorlardan biri olub.

Müasir Azərbaycan Respublikasında dini və milli tolerantlıq artıq dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Bu siyasət təkcə hüquqi sənədlərdə deyil, həm də gündəlik ictimai həyatda öz əksini tapır. Ölkəmizdə müxtəlif dini konfessiyaların sərbəst fəaliyyəti, məscidlərin, kilsələrin və sinaqoqların bərabər şəkildə qorunması və dövlət tərəfindən dəstəklənməsi göz önündədir. Eyni zamanda müxtəlif etnik qrupların - ləzgilər, talışlar, avarlar, tatlar, udinlər və digərlərinin öz dillərini, mədəniyyətlərini və adət-ənənələrini yaşatmaları üçün yaradılan imkanlar bu sahədə real praktikanın göstəricisidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

### Tolerantlıq sadəcə sosial davranış qaydası deyil

Mövzunu "Yeni Azərbaycan"a şərh edən ilahiyyatçı Ağa Hacıbəyli bildirib ki, dini mətnlərin dərin qatlarında insanın fərqli dillərdə, fərqli rənglərdə, fərqli mədəniyyətlərdə yaradılması heç də təsadüfi bir təsvir deyil, əksinə, bir-birini tanıma, anlama və kamilləşmə prosesinin başlanğıcı kimi təqdim olunur: "Bu baxımdan tolerantlıq sadəcə sosial davranış qaydası deyil, həm də mənəvi bir zərurət, imanın kamilləşməsinə aparan bir əxlaqi yüksəliş yolu kimi dəyərləndirilir.

Bu yanaşmada milli tolerantlıq anlayışı da yalnız müxtəlif millətlərin yan-yana yaşamasına dözümlülük göstərmək deyil, əksinə, hər bir millətin öz mədəni kimliyini qoruyaraq digərinin haqqına, dəyərinə və varlığına hörmət etməsi, onu öz varlığının zənginləşməsi üçün bir fürsət kimi görməsi deməkdir. Belə ki, ilahiyyat perspektivində insanın fərqliliyi bir qarşıdurma səbəbi deyil, İlahi sənətin rəngarəngliyinin təzahürü kimi qəbul edilir. Bu rəngarənglik düzgün anlaşıldıqda cəmiyyətdə həm mənəvi harmoniyanı, həm də ictimai sabitliyi gücləndirən əsas dayaqlardan birinə çevrilir".

### Mənəvi təkamülün ayrılmaz hissəsi



A.Hacıbəyli qeyd edib ki, millətlərarası münasibətlərin inkişaf etdirilməsi yalnız siyasi və ya iqtisadi zərurət kimi deyil, daha dərin bir mənəvi məsuliyyət kimi izah edilir: "Çünki insanlar arasında ədalət, qarşılıqlı hörmət və sülhün bərqərar olması ilahi ədalət anlayışının Yer üzündəki əksədası kimi qəbul olunur. Bu kontekstdə hər bir fərdin, hər bir toplumun özünü üstün görmədən, digərini kiçiltmədən ünsiyyət qurması, dialoqa açıq olması və anlaşma mədəniyyətini inkişaf etdirməsi dini etikanın mühüm tələblərindən biri kimi təqdim edilir.

Nəticə olaraq belə bir mənzərə ortaya çıxır ki, dini və milli tolerantlıq, eləcə də millətlərarası münasibətlərin sağlam inkişafı yalnız sosial bir ehtiyac deyil, həm də insanın mənəvi təkamülünün ayrılmaz hissəsidir. Bu təkamül prosesi o zaman daha dərin və davamlı olur ki, insanlar bir-birini rəqib kimi deyil, eyni ilahi mənşədən gələn və eyni məqsədə - ədalətə, sülhə və mərhəmətə yönəlmiş yol yoldaşları kimi qəbul etməyi bacarsınlar".

*Yeganə BAYRAMOVA*

# Gömrük sistemində yeni islahatlar

Azərbaycanın gömrük sistemində həyata keçirilən islahatlar ölkənin iqtisadi təhlükəsizliyini təmin etməklə yanaşı, sahibkarlıq mühitinin yaxşılaşdırılması və biznes mühitinin inkişafına da töhfəsini verməkdədir. Hazırda müasir çağırışlara uyğun olaraq, gömrük fəaliyyətinin yeni istiqamətləri formalaşır, sahibkarlıq subyektləri ilə səmərəli dialoq qurulur, şəffaflıq təmin edilir, gömrük prosedurları sadələşdirilir, qanunvericilik bazası ardıcıl olaraq təkmilləşdirilir. Bu istiqamətdə aparılan islahatların mühüm hədəflərindən biri gömrük əməliyyatlarının daha da asanlaşdırılması və gömrük-keçid məntəqələrində saxlama məsrəflərinin minimuma endirilməsi, daha əlverişli biznes şəraitinin yaradılması və iqtisadi təhlükəsizliyinin təmin olunmasıdır.

Qeyd edilən prioritetləri özündə əks etdirən "Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi Milli Məclisə təqdim edilib və müvafiq komitələrdə müzakirələrdən sonra plenar iclasa çıxarılması qərara alınıb.

## "Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi Milli Məclisə təqdim edilib

Dəyişikliklər "Normativ hüquqi aktlar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Fərdi məlumatlar haqqında" , "İnzibati icraat haqqında", "Avtomobil nəqliyyatı haqqında", "Qida təhlükəsizliyi haqqında" qanunların və digər qanunların müddəaları ilə məcəllənin mətni uzlaşdırılacaq və həmin qanunların tələbləri gömrük fəaliyyətində nəzərə alınacaq.

### "Birbaşa gömrük təmsilçiliyi"...

Digər bir dəyişiklik institusional çərçivənin təkmilləşdirilməsi və xarici ticarət rejiminin asanlaşdırılması və gömrük qaydalarında optimallaşdırılmasının genişləndirilməsidir. "Birbaşa gömrük təmsilçiliyi" adlı mexanizmə əsasən, birbaşa gömrük təmsilçiliyi fiziki şəxslər tərəfindən təmsil edilən şəxsin verdiyi etibarnamə əsasında həyata keçiriləcək. Bu isə xarici ticarət iştirakçıları üçün əlavə imkanlar yaradacaq. Məlumdur ki, hazırda gömrük daşıyıcısı fəaliyyətini həyata keçirmək üçün lisenziya almış hüquqi şəxslər gömrük daşıyıcısı hesab edilir, fiziki şəxslər üçün məhdudiyyətlər var. Təklif olunan dəyişiklik isə bu sahədə bərabərliyi təmin edir və daşıyıcıya tələbin sadələşdirilməsini, gömrük əməliyyatları aparan daşıyıcıların və fiziki şəxslərin dairəsinin genişləndirilməsini, lisenziyanın ləğvini nəzərdə tutur. Belə ki, daşıyıcı malların və nəqliyyat vasitələrinin gömrük nəzarəti altında daşınmasını həyata keçirən hüquqi şəxslər və sahibkarlıqla məşğul olan fiziki şəxslər ola bilərlər, müvafiq orqanın fəaliyyəti bu daşıyıcıların siyahılarını nəşr etmək, rəsmi saytda yerləşdirmək və məlumatların daimi yenilənməsini təmin etməkdən ibarət olacaq. Daşıyıcıların siyahısının nəşr edilərək gömrük orqanının rəsmi internet saytında yerləşdirilməsi daşıyıcıları xarici ticarət iştirakçıları üçün əlçatan edəcək, digər tərəfdən isə bu xidməti həyata keçirən şəxslərin uçotu və elektron tarixçəsi formalaşdırılacaq.

### Gömrük bəyannaməsi sadələşdiriləcək

İnstitusional islahatların digər bir istiqaməti və biznes üçün xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri bəyannamə sisteminin təkmilləşdirilməsidir. Azərbaycan gömrüyündə bəyannaməçinin, mal sahibinin, səlahiyyəti olan digər şəxslərin və ya onların nümayəndələrinin iştirakı olmadan malların və nəqliyyat vasitələrinin yoxlanılması barədə tərtib olunan aktın 2 iş günü ərzində təqdim edilməsi nəzərdə tutulur. Bundan başqa, gömrük nəzarətinin formaları olan gömrük baxışı (məqsədləri, aparılma yeri, vaxtı və sair məsələlər tənzimlənməklə) və gömrük yoxlamasının aparılmasının Məcəllə ilə təfsilatlı (92-1 və 92-2-ci madddələr) tənzimlənməsi planlaşdırılır. "Baxış", "müayinə" və "yoxlama" kimi halların digər qanunvericilik praktikasında ciddi tənzimlənməsi təcrübəsindən irəli gəlir və bu eyni zamanda gömrük orqanlarının bütün fəaliyyətinin hüquqi çərçivəyə salınmasını təmin edir. Eyni zamanda, gömrük auditinin, o cümlədən kameral və səyyar gömrük auditinin aparılmasının xüsusiyyətlərinin tənzimlənməsi, gömrük rəsmiləşdirilməsinin bəyannaməçinin seçimi və gömrük orqanlarının razılığı ilə digər yerlərdə də aparıla bilməsi, gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş qaydasının tətbiq edildiyi gömrük əməliyyatlarının dairəsinin genişləndirilməsi, qısa idxal bəyannaməsinin beynəlxalq təcrübəyə uyğun olaraq ləğvi müddətinin tənzimlənməsi də qanun layihəsində nəzərə alınıb.




### Borcun bir qismi ödənildiyi halda ümumi borc azadılacaq

Qanunvericiliyə təklif edilən dəyişikliklərin istiqamətlərindən biri də yoxlama prosedurlarının optimallaşdırılması və gömrük borclarının tənzimlənməsi ilə bağlıdır. Belə ki, biznes subyektləri gömrük borcunun bir qismini ödədiyi halda təminatın mütənasib olaraq azadılması imkanı təmin ediləcək.

İslahatlar çərçivəsində gömrük təmsilçiliyinin yenidən institutlaşdırılması, o cümlədən təmsilçilik imkanlarının liberallaşdırılması çərçivəsində "gömrük brokeri" anlayışı "dolayı gömrük təmsilçiliyi" ilə əvəz edilir. Gömrük brokeri fəaliyyəti lisenziya əsasında həyata keçirilirdisə, "dolayı gömrük təmsilçisi" olmaq üçün müvafiq reyestrə daxil olmaq şərtdir. "Dolayı gömrük təmsilçisi" reyestrinin gömrük orqanının saytında yerləşdirilməsi xarici ticarət iştirakçılarının bu peşəkar xidmətdən istifadə imkanını artıracaq, bu sahədə xidmətin və rəqabətli mühitin formalaşmasına xidmət edəcək. Birbaşa gömrük təmsilçiliyi fiziki şəxslər tərəfindən təmsil edilən şəxsin verdiyi etibarnamə əsasında həyata keçiriləcək ki, bu da xarici ticarət iştirakçıları üçün əlavə imkanlar yaradır.

### Malların gömrük dəyəri manatla bəyan ediləcək

Gömrük qanunvericiliyində nəzərdə tutulan mühüm hədəflərdən biri  malların gömrük dəyərinin milli valyuta ilə bəyan edilməsidir. Gömrük Məcəlləsinə təklif edilən yeni - 220.3-cü maddəyə əsasən, malların gömrük dəyəri Azərbaycan manatı ilə bəyan ediləcək. Belə ki, idxal-ixrac əməliyyatlarında məhsulun dəyərinin xarici valyuta əvəzinə Azərbaycan Respublikasının milli pul vahidi ilə gömrük bəyannaməsində göstərilməsidir. Bu dəyişiklik daha şəffaf və sadələşdirilmiş hesablanma proseduru yaratmaq məqsədi daşıyır. Eləcə də, hədəf gömrük borclarının hesablanması prosesini asanlaşdırmaq və ödənişlərdə yaranan nöqsanları aradan qaldırmaqdır. Bu tədbirlər həm də gömrük uçotunun təkmilləşdirilməsi və valyuta risklərinin minimuma endirilməsinə xidmət edir.

Beləliklə, dəyişiklikdən sonra malın sövdələşmə qiyməti (faktiki dəyər) və daşınma xərcləri əsasında müəyyən edilən məbləğ milli valyuta ekvivalenti ilə qeyd olunacaq. Statistik dəyər isə beynəlxalq hesablaşmalarda olduğu mexanizmə əsaslanacaq. Yəni, gömrük dəyəri manatla bəyan edilsə də, bəzi statistik göstəricilər ABŞ dolları ilə qeyd oluna bilər.

### Gömrük Komitəsinin səlahiyyətləri genişləndirilir

Dövlət Gömrük Komitəsinin səlahiyyətlərinin genişləndirilməsi də nəzərdə tutulur. Gömrük orqanlarına xarici ticarət iştirakçısı gömrük borcunu ödəmədikdə, gömrük borcunun ödənilməsini təmin etmək üsulu kimi xarici ticarət iştirakçısı olan fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə müraciət etmək, eləcə də bu əsaslar aradan qalxdıqda həmin məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul etmək hüququ verilir. Beləliklə, ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması gömrük orqanının müraciəti ilə məhkəmə tərəfindən təmin edilirsə, bu məhdudiyyətin gömrük orqanına verilməsi operativliyi təmin ediləcək. Anoloji səlahiyyətlər Vergi Məcəlləsində vergi orqanları üçün müəyyən edilib. Bundan başqa, səyyar gömrük auditinin nəticələri haqqında aktlar və müvafiq qərar barədə 3 iş günü ərzində barəsində gömrük auditi aparılan şəxsə məlumatın təqdim edilməsi planlaşdırılır. Bu vəzifənin müəyyən olunması gömrük orqanlarının inzibati icraat çərçivəsində hərəkətlərinin qanuni və əsaslı aparılmasında məsuliyyətinin artmasına, şəxslərin həmin hərəkətlərə qarşı mümkün hüquqi müdafiə vasitələrindən istifadəsi imkanlarını artırır. Bütövlükdə gömrük orqanlarının fəaliyyətinin və gördüyü tədbirlərin nəticələrinin akt formasında təsbit olunması və bu barədə şəxsə məlumatın təqdim edilməsi təmin edilir ki, bu da "İnzibati icraat haqqında" qanunun tələblərindən irəli gəlir.

Hazırda digər dövlətlərin gömrük xidmətləri ilə malların idxalı və ixracı sahəsində məlumatların mübadiləsi nəzərdə tutulursa, bu mübadilənin malların tranzitinə də şamil edilməsi sayəsində ölkəmizin ərazisindən yüklərin tranzit daşınmasının sürətlənməsinə xidmət edəcək.

*E.CƏFƏRLİ*

# Qlobal silahlanma yarışı: Kim nə qədər pul xərcləyir?

**Yeni dünya nizamının formalaşdığı indiki dövrdə mövcud təhlükəsizlik sisteminin həm struktur, həm də məzmunca köhnəldiyi barədə qənaətlər də möhkəmlənir. Aydın şəkildə görünür ki, indiyədək ayrı-ayrı ölkələrin, regionların özlərinin təhlükəsizliyini etibar etdikləri hərbi-siyasi ittifaqlar güvənli deyil və onlar qlobal miqyasda sürətlə dəyişən reallıqlar fonunda yaranan çağırışlara cavab verə bilmirlər. Belə bir şəraitdə yeni hərbi doktrinalar qəbul edildiyinin, dövlətlər və hərbi-siyasi bloklar səviyyəsində daha genişmiqyaslı silahlanma fazasına keçid edildiyinin şahidi oluruq. Bəs indiki qlobal silahlanma yarışında kim nə qədər pul xərcləyir? Siyahı üç ölkənin - ABŞ, Çin və Rusiyanın liderliyi ilə başlayır.**

## BMT səviyyəsində çalınan həyəcan təbili

Dövlətlərin hərbi xərclərini artırmaları digər sahələrdə xərclərin azalması ilə müşayiət olunur. Bununla bağlı beynəlxalq təşkilatlar səviyyəsində həyəcan təbili çalınır. BMT-nin silahsızlaşdırma məsələləri üzrə yüksək səviyyəli nümayəndəsi İzumi Nakamitsu hərbi xərclər üzrə Qlobal fəaliyyət günləri münasibətilə müraciətində vurğulayıb ki, qlobal hərbi xərclərin artması dayanıqlı inkişaf və uzunmüddətli təhlükəsizliyin təmin olunması səylərinə mənfi təsir göstərir.

Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun məlumatına görə, qlobal hərbi xərclər 2025-ci ildə əvvəlki ilə nisbətən 2,9 faiz artımla 2,887 trilyon dollara çatıb.

Bu, ardıcıl on birinci artımdır. Müqayisə üçün qeyd olunub ki, xarici inkişaf yardımı 2024-cü illə müqayisədə 23 faiz azalaraq 174,3 milyard dollar təşkil edib. Beləliklə, hərbi xərclər xarici yardımı 16 dəfədən çox üstələyib.

BMT-nin 2025-ci il üçün büdcəsi 3,72 milyard dollar olub ki, bu da qlobal hərbi xərclərdən 776 dəfə azdır. İzumi Nakamitsu vurğulayıb: "Bu tendensiyalar bizi düşünməyə vadar etməlidir".

Davamlı İnkişaf Məqsədlərinə çatmaq üçün müəyyən edilən son tarixə dörd ildən az vaxt qaldığı nəzərə alındıqda, hədəflərin yalnız beşdəbiri yerinə yetirilir. Bu arada, davamlı inkişaf üçün illik qlobal maliyyələşdirmə çatışmazlığı 4 trilyon dollara çatıb.

BMT-nin silahsızlaşdırma məsələləri üzrə nümayəndəsi bildirib: "Bu, sadəcə resursların çatışmazlığı deyil, həm də düzgün prioritetlərin olmamasıdır". O, vurğulayıb ki, hərbi xərclərin artırılması sülhü və sabitliyi gücləndirmir, əksinə, uzunmüddətli təhlükəsizliyin təməllərini sarsıda bilər.

Nakamitsu əlavə edib ki, silahlanma yarışı eskalasiyanı gücləndirir, inamsızlığı dərinləşdirir və səhv riskini artırır. Pis bir dövrə yaranır: təhlükəsizlik hissi hərbiləşməni haqlı çıxarır və bu, öz növbəsində, yeni qeyri-sabitlik şəraiti yaradır. Bu arada, əsas qlobal təhdidlər - iqlim dəyişikliyi, bərabərsizlik və ərzaq təhlükəsizliyi maliyyələşdirilməmiş qalır.

"Silahlara xərclənən hər bir dollar aclığın qarşısının alınmasına, təhsilin inkişafına və ya iqlim dəyişikliyinə qarşı dayanıqlığın yaradılmasına qoyulmayan vəsaitdir. Bu, diplomatiyaya, münaqişələrin qarşısının alınmasına və insan təhlükəsizliyinin gücləndirilməsinə xərclənə biləcək bir dollardır. Məsələ dövlətlərin müdafiəyə investisiya qoymaq hüququna malik olmasında deyil, əlbəttə ki, bu amil də var. Məsələ real təhdidlərin mövcudluğunda da deyil, onlar reallıqdır. Məsələ bizim hansı növ təhlükəsizliyi təmin etməyimizdə və bunun neçəyə başa gəlməyindədir", - deyə Nakamitsu qeyd edib.

Nakamitsu XXI əsrdə təhlükəsizliyə yanaşmanın yenidən nəzərdən keçirilməsinə çağırıb və BMT Baş katibinin təklif etdiyi konkret addımları xatırladıb: diplomatiyaya üstünlük vermək, etimad yaratmaq, hərbi büdcələri şəffaf etmək və bəzi vəsaitləri davamlı inkişafa yönəltmək.

## ABŞ-ın rekord hərbi büdcəsi

Qlobal güc mərkəzi olan ABŞ bundan sonra da dünyada özünün hərbi üstünlüyünü qoruyub saxlamaqda qərarlıdır. Bu ölkənin Senatı 2026-cı maliyyə ili üçün hərbi xərcləri 925 milyard dollar həcmində təsdiqləyib.

Eyni zamanda, verilən məlumatlarda bildirlir ki, Vaşinqton hərbi büdcənin cari il üçün təsdiqlənən həcmi ilə kifayətlənmək istəmir. Beləliklə də, Senatda təsdiqlənən hərbi büdcənin 1,01 trilyon dollara qədər yüksəldilməsi nəzərdə tutulur. Bu artım xüsusilə Yaxın Şərqdəki hərbi əməliyyatlara xərclərin artması ilə əlaqələndirilir. Pentaqonun martın 10-da Konqresə təqdim etdiyi məlumata əsasən, ABŞ-ın İrandakı hərbi əməliyyatları təxminən 37 gün ərzində 42,1 milyard dollardan çox vəsaitə başa gəlib. Bildirilir ki, Vaşinqton Yaxın Şərqdə döyüşlərin ilk altı günü ərzində 11,3 milyard dollar xərcləyib və münaqişənin hər sonrakı günü üçün əlavə 1 milyard dollar xərcləməyi planlaşdırır.

Ağ Evin perspektivlə bağlı planları isə hərbi büdcəyə daha çox vəsait cəlb edilməsini hədəfləyir. Ağ Ev Konqresdən silah alışı, hərbi modernləşdirmə və İrandakı müharibə üçün hərbi büdcənin kəskin şəkildə artırılmasını istəyib. "Bloomberg"in məlumatına görə, Ağ Evin 2027-ci il üçün Pentaqon büdcəsi tələbi cari illə müqayisədə 1,5 dəfə çox olan 1,5 trilyon dollarlıq büdcənin formalaşdırılmasıdır. "Prezident Tramp Amerikanın milli təhlükəsizlik infrastrukturuna investisiyaları yeniləyəcəyinə və ölkəmizi təhlükəli dünyada yenidən təhlükəsiz edəcəyinə söz verib. 2027-ci il büdcəsi bu vədi yerinə yetirir və ABŞ-ın dünyanın ən güclü ordusunu saxlamasını təmin edir", - deyə Ağ Evin Büdcə İdarəsinin direktoru Rassel Vut Konqresə təqdim edilən sənədlə bağlı şərhində bildirib.

Brukinqs İnstitutunun tədqiqatçısı Cessika Ridl qeyd edir ki, bu artım nəticəsində ABŞ-ın hərbi xərcləri artıq dünya rekordu olan ÜDM-in 4,5 faizinə çatacaq və onun artımı - illik tempdən 1,5 dəfə çox - 1950-ci illərin əvvəllərində Koreya müharibəsindən bəri görünməmiş dərəcədə olacaq.

Eyni zamanda, Trampın müdafiə proqramlarını, o cümlədən "Qızıl günbəz" raketdən müdafiə sistemini və "Qızıl donanma"nın dəniz modernləşdirmə layihəsini maliyyələşdirmək üçün yüz milyardlarla dollarlıq yeni vəsait tələb olunur.

Bundan əlavə, Pentaqon F-35 qırıcı təyyarələrinin alışını artırmaq (47 təyyarə əvəzinə 85 təyyarə planlaşdırılır), tədqiqat və inkişafa investisiyaları artırmaq (179 milyard dollardan 220 milyard dollara qədər) niyyətindədir.



## Çin 7 faizlik artımla ikinci yerdə gəlir

Hazırda hərbi xərclərin artırılmasında əsas rəqabət ABŞ-la Çin arasında gedir. Müdafiə xərclərinin həcminə görə Çin ABŞ-dan sonra ikinci yeri tutur. Pekindən verilən məlumatlara görə, bu ölkənin 2026-cı il üçün milli müdafiə xərclərinin büdcəsi 1,91 trilyon yuan və ya təxminən 277 milyard dollar təşkil edir. Bu, Çinin müdafiə büdcəsinin təxminən 245 milyard dollar olduğu 2025-ci illə müqayisədə 7,3 faiz artım deməkdir. Milli müdafiə xərclərinin bu templə artımı Si Cinpinin 3 il əvvəl elan etdiyi illik 7 faiz artım üçün beş illik plana uyğundur, hətta onu müəyyən qədər üstələyir.

Çində ordunun modernləşdirilməsi də əsas prioritetlər sırasındadır. Məlumdur ki, hazırda müharibələrin xarakteri dəyişib. Klassik müharibələrin ön xətt, ağır texnika, artilleriya atəşi kimi anlayışları artıq arxa plana keçməkdədir. Son illərin təcrübəsi təsdiqləyir ki, innovativ texnikalarla qarşı tərəfin strateji obyektlərini sıradan çıxarmaq və belə nöqtə atışları ilə onu zəiflədərək hədəfə çatmaq müasir müharibələrin ən xarakterik cəhətidir. Bütün bu kimi tendensiyaları nəzərə alan rəsmi Pekin də ordunun modernləşdirilməsi xəttini həyata keçirir. Ötən ilin sentyabr ayında Si Cinpinin qəbul etdiyi hərbi parad Çinin hərbi gücünü bütün dünyaya göstərdi. Bir saatdan çox davam edən paradda müasir hipersəs raketlər, pilotsuz sualtı aparatlar, silahlı "robot-canavar" kimi yeni texnologiyaları nümayiş etdirilib. Göründüyü kimi, artıq yeni nəsil DF-5C qitələrarası ballistik raket, YJ-19 hipersəs raketləri və peyk əleyhinə HQ-29 HHM sistemi kimi son dərəcə müasir texnika Çin ordusunun silahlanmasına cəlb edilib.

İnnovativ silah istehsalına keçid Çin ordusunun rəqabətqabiliyyətliliyinin artırılmasının yeganə istiqaməti deyil. Pekin həmçinin ABŞ və Rusiya ilə rəqabətdən kənarda qalmamaq üçün nüvə arsenalını artırır. Ehtimallara görə, 2030-cu ilə qədər Çinin nüvə arsenalı iki dəfə artaraq 1000-dən çox döyüş başlığına çatacaq. Bu proses DF-41 qitələrarası ballistik raketlərinin aktiv yerləşdirilməsi ilə müşayiət olunacaq.

## Rusiya və Ukraynanın xərcləri

Qlobal silahlanma yarışında Rusiya və Ukraynanın hərbi sahəyə nə qədər vəsait xərclədikləri də diqqətlə izlənilir. Bu iki ölkə artıq 4 ildir ki, bir-biri ilə müharibə aparır. Ötən dövrdə Rusiya Ukraynanın müəyyən ərazilərini tutmağa nail olsa da, strateji məqsədlərinə çata bilməyib. Müharibənin ilk fazasında hücum edən tərəf olan Rusiya klassik müharibə üsullarından istifadə edirdi. Lakin təcrübə göstərdi ki, bu taktika indiki şəraitdə yetərincə səmərəli deyil, kiçik uğur böyük itkilər hesabına qazanılır.

Rusiya-Ukrayna müharibəsində izlənilən digər bir mühüm məqam Ukraynanın revanş götürməsidir. Müharibəni əvvəlində təchizat baxımından ciddi çətinliklərlə üzləşən bu ölkə qısa müddətdə müasir hərbi texnika, o cümlədən də uzaq mənzilli raket istehsalını mənimsəməyə nail olub. Bunun nəticəsidir ki, hazırda Ukrayna Rusiyanın dərinliklərində yerləşən strateji obyektlərə dəqiq zərbələr endirir. Eyni zamanda, bu ölkə dron əleyhinə mübarizə vasitələrinin istehsalında dünyaya nümunə göstərir.

Hərbi xərclərə gəldikdə isə, əlbəttə ki, iki ölkənin göstəriciləri arasında böyük fərq var. Qiymətləndirməyə görə, Rusiyanın hərbi xərcləri 2025-ci ildə 5,9 faiz artaraq 190 milyard dollara və ya ÜDM-in 7,5 faizinə çatıb. 2025-ci ildə bu göstəriciyə görə dünyada yeddinci yeri tutan Ukrayna isə xərclərini 20 faiz artıraraq 84,1 milyard dollara və ya ÜDM-in 40 faizinə yüksəldib.

*Mübariz FEYİZLİ*

# Avropa İttifaqı Ukraynadan vergi dəyişiklikləri tələb edir



Avropa İttifaqı (Aİ) Ukraynadan vergi dəyişiklikləri aparılmasını tələb edir. Əks halda Kiyev üçün 90 milyard avroluq maliyyələşdirməni təmin etmək üçün daha sərt şərtlər tətbiq olunacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə "Bloomberg" agentliyi mənbələrə istinadla məlumat yayıb. Agentliyin məlumatına görə, Ukrayna güzəştli sistem əsasında fəaliyyət göstərən və illik gəliri 77 min 400 avrodan çox olan şirkətlər üçün əlavə dəyər vergisini (ƏDV) 20 faizədək artırmalıdır. Belə bir islahat Ukrayna cəmiyyətində gərginliyə səbəb ola bilər.

Adı çəkilməyən bir məmur qeyd edib ki, Ukrayna Beynəlxalq Valyuta Fondu tərəfindən də oxşar təzyiqlə üzləşir. Bu isə Kiyevə ayrıca kredit proqramı çərçivəsində 8 milyard dollarlıq vəsait ayrılması ilə bağlıdır.

Ukraynanın əsas donorları hesab edirlər ki, müharibə dövründə biznes üçün vergi güzəştləri büdcəni zəiflədir, genişmiqyaslı kölgə iqtisadiyyatının davam etməsinə kömək göstərir.

Xatırladaq ki, Macarıstan və Slovakiya vetonu götürdükdən sonra aprelin 22-də Aİ Ukrayna üçün 90 milyard avroluq maliyyələşdirməni və Rusiyaya qarşı 20-ci sanksiyalar paketini təsdiqləyib.

# Serbiyada seçkiyə aid 4 qanuna dəyişikliklər ediləcək



Serbiyada seçki şəraitinin yaxşılaşdırılması ilə bağlı ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) tövsiyələrinə uyğun olaraq dörd qanuna dəyişiklik və əlavələrin may ayının sonuna qədər qəbul ediləcəyi gözlənilir."Report"un Balkan bürosu xəbər verir ki, bunu Serbiya Milli Məclisinin sədri Ana Brnabiç bildirib.

O həmçinin qeyd edib ki, yaxın günlərdə korrupsiyanın qarşısının alınması haqqında qanuna dəyişikliklərin də rəy üçün DTİHB-ə göndərilməsi gözlənilir.

A.Brnabiç vurğulayıb ki, 1 May bayramı tətilində Belqrad, Novi Sad, Niş və Kragujevats şəhərlərində yerli seçkilər, parlament üzvlərinin seçilməsi və Konstitusiya Məhkəməsi haqqında qanunlara dəyişikliklər, eləcə də prezident seçkiləri haqqında qanunun bir maddəsinə dəyişikliklərlə bağlı ictimai müzakirələr keçiriləcək.

Onun sözlərinə görə, bundan sonra həmin qanunlar parlamentin iclasında müzakirəyə çıxarılmağa hazır olacaq.

"Martın 13-dən etibarən siyasi fəaliyyətlərin maliyyələşdirilməsi haqqında qanuna təklif olunan dəyişikliklərə DTİHB-dən cavab gözləyirik. Bu da vacib qanunlardan biridir və seçki kampaniyası çərçivəsində xərclərə limit qoyur".

Sədr diqqətə çatdırıb ki, 2019-cu ildən etibarən DTİHB tövsiyələrinin icrası üzərində intensiv iş aparılır və seçki şəraiti davamlı şəkildə yaxşılaşdırılır.

# Moskvada 9 May paradı hərbi texnikasız keçiriləcək




İkinci Dünya müharibəsində qələbənin 81-ci ildönümü münasibətilə mayın 9-da Moskvanın Qırmızı meydanında hərbi parad keçiriləcək.

AZƏRTAC Rusiya Müdafiə Nazirliyinə istinadla xəbər verir ki, Rusiya ordusunun bütün qoşun növlərinin hərbi akademiyalarının şəxsi heyəti cərgə ilə Qırmızı meydandan keçəcək. Lakin Suvorov və Naximov hərbi məktəblərinin tələbələri, kadet korpusları və hərbi texnika kolonnaları mövcud əməliyyat şəraitinə görə bu il paradda iştirak etməyəcəklər.

Nazirlik qeyd edib ki, paradın canlı yayımında Strateji Raket Qüvvələrinin komanda məntəqələri, Aerokosmik Qüvvələr və dəniz gəmiləri də daxil olmaqla xüsusi əməliyyat zonasında silahlı qüvvələrin müxtəlif qoşun növlərinin fəaliyyəti nümayiş olunacaq. Paradın aviasiya hissəsi pilotaj qrupları tərəfindən yerinə yetiriləcək və Moskva səmasını Rusiya bayrağının rənglərinə boyayan "Su-25" hücum təyyarələrinin uçuşları ilə başa çatacaq.

# Qlobal neft bazarında gərginlik artır

## BƏƏ-nin "OPEC" və "OPEC+"dən çıxması neft qiymətlərinin idarə olunmasında yeni risklər yarada bilər

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) mayın 1-dən Neft İxrac Edən Ölkələr Təşkilatından (OPEC) və dünya neft bazarlarında qiymətlərin tənzimlənməsi üzrə "OPEC+" sazişindən çıxacağını bəyan edib. BƏƏ Xarici İşlər Nazirliyinin Strateji Kommunikasiyalar şöbəsinin müdiri Əfra Əl Hameli bildirib. Qeyd olunur ki, BƏƏ-nin istehsal siyasətinin, eləcə də onun cari və gələcək güclərinin hərtərəfli təhlilindən sonra qəbul edilib və ölkənin milli maraqlarına, həmçinin bazarın aktual ehtiyaclarının ödənilməsinə səmərəli şəkildə töhfə vermək istəyinə əsaslanır.

Bu qərar BƏƏ-nin uzunmüddətli strateji və iqtisadi baxışını, həmçinin ölkənin dəyişən enerji profilini, o cümlədən daxili enerji istehsalına sürətləndirilmiş investisiyaları əks etdirir və onun dünya enerji bazarlarında məsuliyyətli, etibarlı və perspektivli rola sadiqliyini təsdiqləyir.

Əfra Əl Hameli bildirib ki, BƏƏ hər iki enerji alyansından çıxmaq qərarı versə də, tərəfdaşları ilə sıx əməkdaşlıq etməyə, ikitərəfli və çoxtərəfli əməkdaşlığı dərinləşdirməyə və daha çox çeviklik və cavabdehliklə sabit, yaxşı işləyən bazarlara töhfə verməyə davam edəcək.

### Hörmüz tıxanmaları Əbu-Dabini bu addımı atmağa məcbur etdi

Analitiklər rəsmi Əbu-Dabinin bu qərarının son aylarda qlobal enerji bazarlarında baş verən fraqmentasiyalar və geosiyasi risklər fonunda bu addımı atıb. Belə ki, son illərdə müşahidə olunan və qlobal iqtisadiyyat üçün qeyri-müəyyənliklər yaradan geosiyasi gərginliklər 2025-ci ildə enerji təchizatı və tənzimləmə siyasətlərində mürəkkəbliyi bir qədər də artırıb, cari ilin əvvəlində isə daha da kəskinləşərək hərbi münaqişələrin coğrafiyasını genişləndirməklə, ağır vəziyyət yaradıb. Qısamüddətli dəyişkənlik, o cümlədən Fars körfəzi və Hörmüz boğazında baş verən fasilələr enerji resursları üzrə təchizat zəncirinin pozulması və qiymət artımı səbəbindən daha yüksək inflyasiya gözləntiləri formalaşdırmaqdadır. Körfəz regionunda səngiməyən bu tendensiyalar təchizat dinamikasına təsir göstərməyə davam edərək orta və uzunmüddətli perspektivdə qlobal enerji tələbatının davamlı artımını göstərir. Bu amillər "OPEC" və "OPEC+" alyansının bazar tənzimləri üzrə səylərini daim artırmağa, çevik qərarlar qəbul etməyə məcbur edir. Eyni zamanda, iri tədarükçülərin bazar məsuliyyətini çiyinlərində çəkmək və qırılmış təchizat blokları üzərində sabitliyə nail olmaq üçün ardıcıl səylərinə baxmayaraq, mövcud geoiqtisadi proseslər "OPEC" və "OPEC+"in əsas liderlərini ciddi təzyiqlər altında qoyur. Bu baxımdan BƏƏ-nin qlobal bazarın nizamlamasında "yorğunluqdan" kartel blokundan çıxması istisna deyil. BƏƏ-nin energetika naziri Süheyl Əl Mazruinin açıqlamasından da bunu hiss etmək olar. O qeyd edib ki, BƏƏ Hörmüz boğazındakı məhdudiyyətlər sayəsində bazara əhəmiyyətli təsir göstərmədən bu addımı münasib vaxtda atır və BƏƏ OPEC-dən çıxmaq qərarını qəbul edərkən heç kəslə birbaşa məsləhətləşməyib. Bu, ona dəlalət edir ki, "OPEC+"in ən strateji təminatçılarından biri son 2 aydakı gərginliklərdən bezərək kənara çəkilməyi uyğun hesab edir.

Qeyd edək ki, BƏƏ 1971-ci ildən qlobal neft bazarının sabitliyinə töhfə verməkdə və istehsalçı ölkələr arasında əməkdaşlığın inkişaf etdirilməsində fəal rol oynayıb.



### BƏƏ neft istehsalını 5 milyon barelə çatdıracaq

Nəzərə alsaq ki, bu ölkə gündəlik qlobal bazara təxminən 3-3,5 milyon barel neft tədarük edir və kvotanı tənzimləyən 8 ölkədən biridir, ölkənin resursları qlobal neft istehsalının təxminən 4 faizini təşkil edir, bu baxımdan ciddi pozuntuların olacağı güman edilə bilər. Eyni zamanda, "OPEC+"dakı yanacaq kvotasının ən azı 8-10 faizinə malik BƏƏ-nin hasilat və bazardakı gündəlik tənzimləmə siyasətinə qarışmaması vəziyyəti bir qədər də mürəkkəbləşdirəcək. Çox güman ki, BƏƏ bundan sonra özü müstəqil neft kvotasına uyğun bazara yanacaq çıxaracaq və alyansın limit qərarlarına tabe olmayacaq. Qeyd edək ki, "OPEC" və "OPEC+" ölkələri bazarın tələbatına uyğun olaraq üzv və tərəfdaş ölkələr üçün gündəlik hasilat kvotası tətbiq edir. BƏƏ artıq alyansda yer almadığından kvotadan daha çox neft hasil və tədarük edə bilər. Bunu ölkənin Energetika Nazirliyi də istisna etmir, ilkin açıqlamdan bəlli olur ki, BƏƏ 2027-ci ilə qədər gündəlik istehsal gücünü 5 milyon barelə çatdırmağı hədəfləyir və 2023-2027-ci illər arasında təxminən 150 milyard dollar investisiya qoymağı planlaşdırır. Bu isə hazırkı nəql imkanını ən azı 50 faiz artırmaq deməkdir. Bu halda bazara daha çox neft çıxarılması mümkün ola bilər ki, bu da qiymətlərin ucuzlaşmasına gətirib çıxaracaq. Rəsmi Əbu-Dabi onsuz da yüksək qiymətləri münasib saymır, "OPEC" və "OPEC+"in iclaslarında hər zaman neftin qiymətinin yüksək sıçrayışından narahatlığını ifadə edib və orta bazar qiymətinin 80-90 dollar arasında olmasını daha sabit əmsal saydığını açıqlayıb.

### Enerji agentlikləri və iri treyderlər narahatdır

Hazırda enerji agentliklərini və iri treyderləri düşündürən əsas məsələlərdən biri Birləşmiş Ərəb Əmirliklərinin kartel blokundan və "OPEC+" alyansından çıxmasının qlobal neft bazarına necə təsir edəcəyi ilə bağlı narahatlıqlardır.

Yeri gəlmişkən, BƏƏ rəhbərliyinin mövcud qərarından sonra qlobal neft bazarlarında dalğalanmalar müşahidə olunub. "Brent" neftinin qiyməti 2,03 faiz azalaraq barel üçün 103,75 dollara, Qərbi Texas Aralıq neftinin qiymətləri isə 3,39 faiz artaraq 99,64 dollara yüksəlib.

Mövcud ssenarilər fonunda sabit enerji bazarı konyukturası bir çox ölkələr kimi Azərbaycan üçün də xüsusi əhəmiyyət daşıyır. Onu da xatırladaq ki, Azərbaycan hökuməti qlobal enerji qiymətlərində kəskin artım fonunda ölkə iqtisadiyyatına, ələlxüsus da idxal inflyasiyasının artması ehtimalına da xüsusi nəzarət edir və bu faktorun pul siyasətinə təsirini dərindən izləyir. Mərkəzi Bank (MB) hazırkı şəraitdə neft və qaz qiymətləri ilə bağlı dəqiq proqnoz verməyin olduqca çətin olduğunu bildirir. Belə ki, qiymətlərin kəskin artması və ya əvvəlki səviyyələrinə qayıtması əsasən mövcud münaqişənin hansı istiqamətdə inkişaf etməsindən asılı olacaq.

**E.CƏFƏRLİ**

# Yaxın Şərq müharibəsi bitirmi?

## ABŞ qalibiyyət mesajı verir - İranda vəziyyət gərgindir

**Artıq 2 aydır ki, müəyyən fasilələrlə davam edən Yaxın Şərq münaqişəsində "taym-aut" davam edir. Bir çox qərbli politoloqlar münaqişənin artıq finişə doğru yol aldığını bildirir. Onların fikrincə, qarşılıqlı hava hücumlarının bərpası daha böyük qarşıdurmaya yol açacaq - bu isə digər qlobal oyunçuların da münaqişəyə cəlb olunması deməkdir. Başqa sözlə, hücumların bərpası hətta III Dünya müharibəsinin başlanması deməkdir. Bu isə hazırkı mərhələdə heç bir ölkəyə sərf etmir. Belə ki, yeni iqtisadi nizamın oturuşması üçün yaranan münbit zəminə böyük zərbə vurula bilər. Xarici mətbuat isə həm də, müharibənin yenidən bərpa olunmaması üçün Ağ Evə böyük təzyiqlərin olduğunu yazır. Hörmüz boğazının bağlanması, dünya enerji bazarında qiymətlərin artması, paralel olaraq neft ixrac edən Körfəz ölkələrinin kommunikasiya imkanlarının məhdudlaşdırılması vəziyyəti daha da gərginləşdirib. Xarici media yazır ki, artıq Aİ ölkələri, Körfəz dövlətləri, qlobal oyunçular (xüsusilə, boğaz vasitəsilə böyük həcmdə neft idxal edən dövlətlər) Vaşinqtona müharibəni yekunlaşdırmaq, bu və ya digər şəkildə razılığın əldə olunması üçün ortaq mövqe tapmaq üçün təzyiqlər göstərirlər.**
**Xarici təzyiqlə yanaşı, daxili auditoriyada da vəziyyət gərgindir. Müharibənin uzanması hazırkı iqtidarın qarşıdan gələn seçkilərdə "əlini zəiflədir". Siyasi şərhçilər bildirirlər ki, Trampın qalibiyyət elanı müəyyən mənada siyasi reputasiyanı qaldırmağa da yardım edəcək. İranın mümkün güzəştlərə gedəcəyi halda Respublikaçılar partiyası aralıq seçkilərdə mühüm səs balansı qazanmış olacaq. Deyəsən, ABŞ administrasiyası da bu fikirdədir - Tramp müharibədə qalib dövlət olduğunu elan etməyə hazırlaşır.**

### Ağ Evdən xahiş...




"Reuters" agentliyinin yaydığı məlumata görə, Ağ Evin xahişi ilə Amerika kəşfiyyatı ABŞ-ın İranla müharibəyə son qoymaq barədə mümkün birtərəfli bəyanatının nəticələrini qiymətləndirir. İki ABŞ rəsmisinə və məsələ ilə tanış olan başqa bir şəxsə istinadən bildirilir ki, kəşfiyyat agentlikləri Prezident Donald Trampın birtərəfli şəkildə qələbə elan etməsi halında İranın necə reaksiya verəcəyini təhlil edir. Mənbələrin bildirdiyinə görə, məqsəd Trampın bəzi rəsmilərin və məsləhətçilərin bu ilin sonlarında keçiriləcək ara seçkilərdə respublikaçıların əhəmiyyətli dərəcədə məğlubiyyətinə səbəb ola biləcəyindən qorxduğu münaqişədən potensial geri çəkilmənin nəticələrini anlamaqdır.

ABŞ-da ara seçkilər noyabr ayına planlaşdırılıb və bir çox müşahidəçi hazırda hakim Respublikaçılar Partiyasının məğlubiyyətini proqnozlaşdırır. Bu, əsasən İrana qarşı çox populyar olmayan əməliyyat və nəticədə ölkədə yanacaq qiymətlərinin artması ilə bağlıdır. Agentliyin məlumatına görə, Vaşinqton hələlik heç bir qərar qəbul etməyib və ABŞ administrasiyasının rəhbəri İrana qarşı hərbi kampaniyanı daha da gücləndirə bilər.

"Lakin, gərginliyin sürətlə azalması prezidentə siyasi təzyiqi azalda bilər, hətta bu, İranın qətiyyətini gücləndirsə və Tehranın lazım gələrsə, "Yaxın Şərqdəki ABŞ müttəfiqlərini təhdid etmək" üçün nüvə və raket proqramlarını bərpa etməsinə imkan versə belə", - deyə məlumatda qeyd olunub.

### Vensin "B" planı...

Qeyd edək ki, hələ birinci danışıqlar raundundan öncə, aprelin 7-də ABŞ vitse-prezidenti C.D. Vens ABŞ-ın İrana qarşı hərbi məqsədlərinə əsasən nail olduğunu qeyd etmişdi: "Bu o deməkdir ki, Prezident Trampın dediyi kimi, bu müharibə tezliklə bitəcək."

Nəticənin iranlılardan asılı olduğu fikrini bildirən C.D. Vens bütünlükdə prosesi ümumiləşdirərək qeyd etmişdi ki, ortada iki yol var. Birinci yol iranlıların normal bir ölkə olmaq, terrorizmin maliyyələşdirilməsini dayandırmaq və qlobal ticarət və mübadilə sisteminin bir hissəsi olmaq qərarına gəlməsidir - "B" variantı iranlıların danışıqlardan imtina etməsi və terrorizmi dəstəkləməyə davam etməsi, qonşularına qarşı təcavüz etməsidir. Vens demişdi ki, bu hal İrana ağır nəticələr vəd edir.

Nəticə etibarı ilə hələlik Vensin irəli sürdüyü "B" planı inkişaf etməkdədir. Bununla belə, atəşkəs dövrünün başa çatmasına baxmayaraq ABŞ hələ də müharibəni bərpa etmir - bunun qarşılığında isə...

### Vaşinqton İranın "nəbzini" yoxlayır...

Bir sıra politoloqlar ABŞ-ın müharibəni dayandırma ilə bağlı tezislərin tirajlanmasını da adminstrasiyanın "B" planı kimi izah edir. Onların fikrincə, ABŞ-ın indiki mərhələdə geri çəkilməsi və ya hansısa güzəştə getməsi siyasi intihardır - bəs niyə belə xəbərlər yayılır? Vurğulanır ki, bu kimi xəbərlər İranın siyasi nəbzinin ölçülməsinə və daxili intriqaların genişlənməsinə hesablanıb.

ABŞ bu yolla sülh tərəfdarı olduğunu nümayiş etdirir - İranın güzəştə getməməsi isə müharibəyə davam deməkdir. Bu halda, İran həm də qlobal mühitdə günahkar qismində bir daha təsdiqlənəcək. Digər tərəfdən, bu yol İranın atəşkəsə və ya danışıqlara nə qədər meyilli olduğunu göstərəcək.

İkinci bir tərəfdən, vurğulandığı kimi, ABŞ-ın müharibəni dayandırmaq mesajı İranda onsuz da gərgin olan siyasi mənzərəni daha da qatılaşdırır. Müharibə tərəfdarları sülhə "xəyanət" kimi baxırlar. Danışıqların tərəfdarı olanlar isə öz arqumentlərini irəli sürürlər - nəticədə, qarşıdurma güclənir. Bu isə İranı daha çətin vəziyyətə salmağa yardım edir.

### İqtisadi blokada gücləndirilir...

"The Wall Street Journal" qəzetinin məlumatına görə, ABŞ prezidenti Donald Tramp neft ixracını və gəmiçiliklərini məhdudlaşdırmaqla İrana uzunmüddətli təzyiq göstərməyə hazırlıq görməyi əmr edib. Ağ Ev bombardmanların bərpası da daxil olmaqla, digər ssenariləri nəzərdən keçirib, lakin onları daha riskli hesab edib. Qəzetin ABŞ rəsmilərinə istinadən verdiyi məlumata görə, ABŞ prezidenti Donald Tramp administrasiyasına İranın uzunmüddətli dəniz blokadasına hazırlaşmağı əmr edib.

Bu strategiya neft ixracını və gəmiçiliklərini məhdudlaşdırmaqla İran iqtisadiyyatına təzyiq göstərməyi nəzərdə tutur. Qərar Ağ Evdə davam edən münaqişə və hərbi eskalasiyanın daha da artmasına alternativ tapmaq səyləri fonunda bir sıra müzakirələrdən sonra qəbul edilib. "WSJ"-nin məlumatına görə, uzunmüddətli blokadaya keçmək qərarı Ağ Evin son görüşləri, o cümlədən əsas administrasiya rəsmiləri ilə "Vəziyyət Otağı"nda keçirilən brifinqlər zamanı verilib.

"Reuters"in məlumatına görə, strategiya İran limanlarına gəmiçiliklərin məhdudlaşdırılmasını və neft ixracının azaldılmasını nəzərdə tutur ki, bu da İran iqtisadiyyatına təzyiqi artırmalı və onun maliyyə resurslarını məhdudlaşdırmalıdır.

"Wall Street Journal" qəzetinin məlumatına görə, Ağ Ev hesab edir ki, əlavə zərbələr münaqişənin genişlənməsinə və əlavə regional oyunçuların cəlb olunmasına səbəb ola bilər.

### İrana təzyiq - ABŞ-da benzinin qiyməti qalxır...

Nəzərdə tutulan gücləndirilmiş blokada rejimi İran limanlarına gedən və gələn gəmilərin monitorinqini və Tehranın əsas gəlir mənbəyi olan neft ixracının məhdudlaşdırılmasını əhatə edir. Amerikanın hesablamalarına görə, bu cür tədbirlər İrana gündəlik yüz milyonlarla dollara başa gələ bilər.

WSJ-nin məlumatına görə, 15 gündür davam edən blokada artıq İran iqtisadiyyatına nəzərəçarpacaq dərəcədə təsir göstərir. Tehran nefti saxlamaq və istehsalın tamamilə dayandırılmasının qarşısını almaq üçün alternativ təchizat yolları axtarır. Davam edən blokadanın qlobal enerji bazarlarına təsirləri də hesablanıb. Reuters-in məlumatına görə, neft qiymətləri ardıcıl səkkizinci sessiyadır ki, artıb. Brent markalı xam neftin qiyməti bir barel üçün 111,78 dollara, Amerika WTI markalı xam neftin qiyməti isə 100,50 dollara çatıb.

ABŞ-ın daxili bazarında enerji qiymətlərinin artması artıq yanacaq qiymətlərinə təsir edib. WSJ-nin məlumatına görə, benzinin orta qiyməti qallon üçün 4,18 dollara çatıb ki, bu da münaqişənin başlanğıcından bəri ən yüksək səviyyə və fevral ayının sonundan təxminən 1,20 dollar yüksəkdir. "Reuters" də oxşar qiymətləndirmələr aparır. Qarşıdurmanın hərbi mərhələsinin başlanğıcından bəri benzinin qiyməti 40 faizdən çox artıb.

### 50 milyard itki...

Vurğulandığı kimi, Körfəz ölkələrinin itkisi daha böyükdür - Körfəz neft ticarətindən itirilən mənfəət təxminən 50 milyard dollardan yuxarıdır. Qlobal bazar təxminən 500 milyon bareldən artıq neft itirib. "Reuters" bu barədə Wood Mackenzie analitiklərinin hesablamalarına və "Kpler"in məlumatlarına istinadən məlumat yayıb.

Qeyd edək ki, ən böyük itki Səudiyyə Ərəbistanında yaşanır - rəqəm 5 milyard dolları ötüb. İraqda mart ayında gəlir 76 faiz azalaraq 1,73 milyard dollara düşüb. Küveytdə isə bu rəqəm müvafiq olaraq 73 faiz nisbətindədir - gəlir isə 864 milyon dollara düşüb.

**SADİQ**

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Terrorun kölgəsində qalan gənclik...

## Unudulmayan 30 aprel




## ADNA terrorundan 17 il ötür

17 il öncə bu gün yaddaşlara qanla yazıldı, insan talelərini bir anda alt-üst edən, adi bir günün içində qəfil qopan dəhşətli faciə kimi tarixə həkk olundu. Aprelin 30-u günü hər şey sanki bir anlıq dayandı, zamanın özü belə sarsıldı. Çünki Azərbaycan Dövlət Neft Akademiyasının (ADNA) sakit dəhlizlərində dolaşan gənclik arzuları, gələcəyə ümidlə baxan baxışlar, elm və bilik uğrunda çalışan insanların həyatları bir anda qorxu, panika və geri dönüşü olmayan itkilərlə əvəz olundu.

Həmin gün səhər heç kim hiss etmirdi ki, bir neçə dəqiqə sonra adi həyatın axarı parçalanacaq, tələbələrin gülüş səsləri silah səslərinə qarışacaq, müəllimlərin sakit addımları ölümün kölgəsi ilə üst-üstə düşəcək. Hər kəsin yaddaşında silinməz iz buraxacaq bir faciə başlayacaq. Terrorun ən dəhşətli tərəfi onun qəfil gəlməsi və ən müdafiəsiz, ən günahsız insanları hədəf almasıdır...

17 il öncə ADNA özünün qanlı tarixini yaşadı. Bu tarix ölən və yaralananların adı ilə yadda qaldı və onların adı ilə də anılacaq. Tədris binasına silahlı hücum zamanı universitetin ikinci korpusuna daxil olan terrorçu Fərda Qədirovun birinci mərtəbədən altıncı mərtəbəyədək qarşısına çıxanlara “Makarov” tipli tapançadan atəş açması nəticəsində müəllim və tələbələr amansızcasına qətlə yetiriliblər. Terror aktı nəticəsində 12 nəfər həlak olub, 13 nəfər ağır yaralanıb. Hadisəni törədən şəxs binanın sonuncu mərtəbəsində əlindəki silahla özünü vuraraq öldürüb.

Maraqlıdır ki, hadisə 2009-cu ildə Azərbaycan büdcəsinə yüz milyonlarla dollar həcmində neft gəlirləri daxil olan günlərdə törədilib. Neft Akademiyasının hədəf olaraq seçilməsi də bu baxımdan təsadüfi görünmür. Bir sıra qonşu və uzaq dövlətlərdə bu tərəqqinin qısqanclıq doğurduğu gün kimi aydın idi. Hər halda həmin ölkələrin mediasında ölkəmizə yönəlik mənfi yüklü materiallar çoxalmışdı. Ona görə də Azərbaycanın məhz ən həssas yerindən - uğurlarının əsas qaynağı olan neftin və gəncliyin üzərindən vurulması sui-qəsd nəzəriyyəsi tərəfdarları ilə yanaşı, ayıq, soyuq düşünməyi üstün tutan analitiklərin də nəzərini şimala yönəltmişdi.

Qeyd edək ki, faktla bağlı Cinayət Məcəlləsinin terrorçuluq, qəsdən adamöldürmə, qaçaqmalçılıq, qanunsuz olaraq odlu silah, döyüş sursatı əldəetmə, saxlama, daşıma, gəzdirmə və qanunsuz olaraq narkotik vasitələri əldəetmə, saxlama və daşıma maddələri ilə cinayət işi başlanıb. İstintaqın məlumatına görə, cinayətin təşkilatçısı Gürcüstan vətəndaşı, erməni əsilli Mardun Qumaşyan olub. O, müttəhimlərlə cinayət əlaqəsinə girərək, onları Bakıda azərbaycanlılara qarşı terror aktı törətməyə razı salıb.

İstintaq hesab edib ki, Qumaşyan terrorçuluğu maliyyələşdirərək bu cinayətin təşkili və həyata keçirilməsi üçün onlara ümumilikdə 50 min ABŞ dolları məbləğində pul verəcəyini vəd edib. O əvvəlcədən Fərda Qədirova 5 min ABŞ dolları məbləğində pul verərək, qalan məbləği cinayət törədildikdən sonra verəcəyi, eləcə də F.Qədirov tərəfindən hələ 2008-ci il noyabrın 8-də Tbilisidə odlu silah satışı mağazasından aldığı “Makarov” tipli tapança və 200 ədəddən artıq patronların qanunsuz olaraq Azərbaycana keçirilməsi barədə razılığa gəlib.

İbtidai istintaq Fərda Qədirovun ruhi xəstə olduğunu müəyyənləşdirib. O, cinayəti törətməzdən əvvəl mobil telefonu ilə video çəkib və bunu Azərbaycan cəmiyyətinə nifrət etdiyi üçün törətdiyini deyib. Qədirov Gürcüstana gəlməzdən əvvəl Rusiyada yaşayıb.

Baş verən bu terror hadisəsindən ölən və yaralananların yaxınları ilə yanaşı, bütün ölkə sarsıldı. Dəhşətli terrordan 17 il ötsə də, universitetin divarlarındakı nalələr, acılar hələ də qalmaqdadır. Bu faciə bir daha göstərdi ki, insan həyatının dəyəri ölçülməzdir. Belə hadisələr unudulmamalı, xatırlanmalı, dərs çıxarılmalı və gələcəkdə eyni qaranlığın təkrarlanmaması üçün yaddaşlarda daim canlı saxlanmalıdır.



ADNA terrorunun dəhşəti təkcə o an yaşanan qorxu ilə ölçülmür. Onun ən ağır tərəfi sonrasında gələn sükut, boş qalan auditoriyalar, geri qayıtmayan addımlar, hər küncdə hiss olunan yoxluq və insanların içində yaranan o izaholunmaz boşluqdur. O boşluq ki, heç bir zaman tam dolmur, çünki itirilənlər sadəcə insanlar deyil, eyni zamanda ümidlər, planlar və gələcəklər idi...

*Yeganə BAYRAMOVA*

# Yeni Orleandan dünyaya...

## Zəncilərin yaratdığı musiqi janrı

**Bu musiqi janrı yalnız notlardan ibarət deyil, eyni zamanda azadlığın, fərdiyyətin və anın içində yaşamağın fəlsəfəsidir. Caz ifaçısı səhnədə əvvəlcədən yazılmış qaydalarla məhdudlaşmaq əvəzinə, öz hisslərini, daxili gərginliyini və sevincini anbaan musiqiyə çevirərək sanki dinləyicini gözlənilməz dönüşlərlə dolu bir səyahətə aparır.**

**Cazın vətəni Yeni Orlean sayılır. Amerikada yaşayan qaradərililərin ritmik musiqiləri ilə ağ dərililərin xalq musiqilərinin qarışığından yaranmış janrın dünya musiqi ictimaiyyəti tərəfindən qəbul edilməsi isə XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf edir. Caz vaxtilə ABŞ-da istismar edilən hüquqsuz zənci əhalisi, nə vaxtsa öz vətənlərindən didərgin salınmış qara qulların əcdadları arasında yaranmış musiqi idi. Caz həmçinin müxtəlif mədəniyyətlərin, tarixlərin və duyğuların bir-birinə qarışaraq yeni, canlı və daim dəyişən bir musiqi dilinə çevrildiyi möhtəşəm bir sənət formasıdır. Yeri gəlmişkən, hər il aprelin 30-u dünyada Beynəlxalq Caz Günü kimi qeyd edilir. 2012-ci ildə UNESCO tərəfindən elan edilən bu gün dünyanın cazsevər ölkələrində keçirilən konsert proqramları ilə yadda qalır. Əlamətdar gün hər il dünyanın 190-dək ölkəsində qeyd edilir.**

### Yeni Orleanın bütün mühitini əks etdirirdi

Tarixi qədim olan cazın belə gec tanınmasının, sözsüz ki, səbəbləri var. Musiqiçilər caz haqda danışarkən bildirirlər ki, bu janrın Yeni Orleanda deyil, Amerikanın digər bir bölgəsində yaranması mümkün deyildi. Çünki caz Yeni Orleanın bütün xarakterini, mühitini özündə əks etdirir. Bu şəhər öz səs-küyü, şənliyi, ən başlıcası, buradakı qaradərili insanlarla daha çox özünüifadəyə imkan verməsi ilə fərqlənirdi. Bu da həlledici bir faktdır ki, Avropadan Cənubi Amerikaya köçmüş ilk qaradərili kolonistlər nəslinin xatirəsinə ucaldılmış yeganə heykəl məhz Yeni Orleandadır.

### İnsanı göz yaşı həddinə gətirən janr...

Ağdərili amerikalılar qaradərili qulların mahnı və rəqslərini vəhşi təbiətin məhsulu kimi dəyərləndirirdilər. Avropa musiqisinin ənənəsinə alışmış qulaqlar bu musiqidə ancaq xaos və ahəngsizlik eşidirdi. Təxminən XIX əsrə qədər bu musiqini tədqiq etmək heç kimin ağlına gəlmirdi. Cazın primitiv olduğu qədər də intellektual, insanı göz yaşları həddinə gətirən musiqi janrı, müxtəlif mədəniyyətlərin sintezinin məhsulu olduğunu ağ dərili amerikalılar, eləcə də avropalılar sonralar başa düşdülər.

### Cazın inkişaf mərhələləri...

**“Ragtime”:** Bu mərhələyə əsasən keçmişdə mərasimlərdə söylənilən mahnılar aid edilir. 1917-ci ilə qədər davam etmiş bu mərhələnin ən məşhur caz ustası Elli Roli Martondur. Təəssüf ki, bu dövrə aid heç bir caz nümunəsi qalmayıb.

**“Blues”:** Amerikalı qaradərili kölələrin işləyərkən söylədikləri “xalq mahnıları” olan “Blues” cazın meydana gəlməsində böyük rol oynayıb. “Blues” ifadə məzmunu baxımından zəncilərin daxili kədərini, çətinliklərini ifadə edir.

**“Hot caz”:** Artıq bu dövrdə caz daha da inkişaf edib, səhnəyə yol tapa bildi. “Hot caz” dövründə bütün caz ustaları öz üslublarını formalaşdırdı.

**“Swing”:** “Hot caz”ın davamı və daha təkmil formasıdır. Bu dövrdə caz bütün sərhədlərini müəyyənləşdirib və tam bir musiqi janrı kimi özünü təsdiq edib. Bu dövrün əsas caz ustaları Louis Armstrong, Colemas Havvkins, Lester Young, Roy Eldridge, Glenn Miller kimi sənətkarlar olub.

### Dünya cazının Azərbaycan cazibəsi

Bu gün bütün dünyada azadlıq musiqisi kimi səslənən cazın öz qolu, öz axarı və cazibə qüvvəsi var. Məsələn, Braziliya, Kuba, Polşa və digər bir neçə ölkədə cazın spesifik çalarları mövcuddur. Kuba cazı daha çox emosionallığı ilə seçilirsə, muğam üzərində qurulmuş Azərbaycan cazı lirizmi ilə diqqəti cəlb edir. Azərbaycan cazı Şərqin incə melodik duyumu ilə Qərbin improvizasiya azadlığının nadir və sehrli qovuşağıdır.

Azərbaycan cazının bünövrəsi ötən əsrin 30-cu illərinin sonunda böyük musiqi xiridarları Niyazi və Tofiq Quliyevin yaratdıqları “Dövlət cazı” adı ilə tanınan Dövlət estrada orkestri tərəfindən qoyulub. Orkestrin ilk tərkibi üç trombon, eyni sayda truba, beş saksafon, royal, gitara və zərb alətlərindən ibarət olub. Orkestrin ilk konsert proqramına klassik caz musiqisi nümunələri ilə bərabər Niyazinin və Tofiq Quliyevin pyesləri də daxil edilib.



1941-1945-ci illər müharibəsi dövründə və müharibə qurtardıqdan sonra “Dövlət cazı”na bəstəkar Rauf Hacıyev rəhbərlik edib. Amma 50-60-cı illərdə SSRİ-nin Qərb əleyhinə yönəlmiş təbliğat maşını ölkədə bu musiqi janrının inkişafına güclü ziyan vurub. Ancaq bütün qadağalara baxmayaraq, bu musiqinin fanatları bir yerə toplaşır, Qərb radiostansiyalarını dinləyir, sonra isə eşitdikləri musiqi parçalarını müstəqil surətdə ifa etməyə cəhd göstərirdilər.

60-cı illərdə Qara Qarayev, Niyazi, Tofiq Quliyev və Rauf Hacıyevin dəstəyi və rəhbərliyi ilə Azərbaycanda estrada və caz musiqisinin ikinci həyatı formalaşdı. Rafiq Babayevin “Qaya” vokal kvarteti yarandıqdan sonra Vaqif Mustafazadə dövrü başladı.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5181**
**Sifariş: 549**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova